# YNİİ 2025

# Yeni Nəsil İqtisadiyyat İndeksi

## Gələcəyin iqtisadi strategiyasını formalaşdıran barometr




10 subindeks arasında α-kompozit indeks və
İƏT-TDT-CAREC regional müqayisəsi

**İƏT (ECO)**



**TDT**



**CAREC**



# YNİİ 2025

## YENİ NƏSİL İQTİSADİYYAT İNDEKSİ

**METODOLOGİYA VƏ QLOBAL REYTİNQ HESABATI**

*Bu günün qərarları, sabahın iqtisadi gücü*

Rəqəmsallaşma, innovasiya, insan kapitalı, kreativ sənayelər və yaşıl transformasiya üzrə ölkələrin mövqeyini göstərən ilk qlobal barometr.
Bu indeks hökumətlər, biznes və cəmiyyət üçün bir çağırışdır:

*Davamlı, inklüziv və rəqəmsal gələcəyə doğru birlikdə addımlamaq.*

**15**
ÖLKƏ

**10**
SUBİNDEKS

**1**
QLOBAL HESABAT

# Yeni Nəsil İqtisadiyyat İndeksi 2025 (YNİİ)

*Metodologiya və Qlobal Reytinq Hesabatı*

*Hüseynova Arzu Doğru qızı. Yeni Nəsil İqtisadiyyat İndeksi. (YNİİ 2025): Metodologiya və Qlobal Reytinq Hesabatı. Bakı.,* Birinci buraxılış, 2025

## Yeni iqtisadi reallığın xəritəsi

"Yeni Nəsil İqtisadiyyat İndeksi 2025" (YNİİ), qlobal iqtisadiyyatın sürətlə dəyişən mənzərəsini anlamaq üçün unikal bir bələdçidir. Bu kitab, ənənəvi iqtisadi göstəricilərdən kənara çıxaraq, ölkələrin rəqəmsal gələcəyə hazırlığını, innovasiya potensialını və insan kapitalının gücünü ölçür. 15 ölkəni əhatə edən bu tədqiqat, həm qlobal liderlərin uğur formulunu, həm də inkişaf etməkdə olan ölkələrin strateji çağırışlarını ortaya qoyur.

*"Bu indeks sadəcə rəqəmlər toplusu deyil. O, hökumətlər, biznes liderləri və akademik dairələr üçün strateji qərarlar qəbul etməkdə əvəzsiz bir kompasdır."*

Kitabda İƏT, TDT və CAREC təşkilatlarına daxil olan 15 ölkələrin müqayisəli təhlili, "input-output" paradoksları və 2030-cu ilə qədər olan strateji yol xəritələri ətraflı şəkildə təqdim edilmişdir.

**İqtisadiyyat Nazirliyinin**

**İqtisadi Elmi Tədqiqat İnstitutu**

office@esri.gov.az

https://esri.gov.az/

https://ngei.theesri.com/

**© 2025. Bütün hüquqlar qorunur.**

CC BY 4.0

**https://creativecommons.org/licenses/by/4.0/**

# MÜNDƏRİCAT

ÖN SÖZ ... 8
Qısaltmalar və terminlər ... 9
İndeks haqqında: Yeni nəsil iqtisadiyyatın ölçülməsinə keçidin məğzi ... 10
Giriş ... 17
I Hissə: KONSEPTUAL ÇƏRÇİVƏ ... 19
1.İndeksin mahiyyəti və məqsədi ... 19
1.1 Yeni Nəsil İqtisadiyyat anlayışı və onun əsasları ... 19
1.2. Ənənəvi iqtisadiyyatdan fərqləndirici cəhətlər ... 21
1.3. Yeni Nəsil İqtisadiyyatın əsas komponentləri və təsnifatı ... 22
1.4. Yeni Nəsil iqtisadiyyat İndeksinin məqsədi, tətbiq sahələri və hədəf auditoriyası 26
1.5. Tətbiq sahələri ... 26
II Hissə: METODOLOGİYA ... 28
2.1. İndeksin quruluşu və komponentləri ... 28
2.1.1. Subindekslərin siyahısı və funksional bloklar ... 28
2.1.2. YNİİ-nin input və output blokları ... 31
2.2. Göstəricilərin seçilməsi və məlumat toplanması ... 31
2.3. Əhatə dairəsi və məlumat mənbələri ... 32
2.3.1. Əhatə Dairəsi ... 32
2.3.2 Məlumat mənbələri ... 33
2.4. Hesablama metodologiyası ... 33
2.5. İndeksin komponentləri və çəki strukturu ... 34
2.6. Seçilmiş çəki strukturunun əsaslandırılması ... 34
2.7. Korrelyasiya analizinin rolu ... 35
2.8. Metodologiyanın yekun qiymətləndirilməsi ... 36
2.9. YNİİ-nin bütün bölmələri üzrə ümumi mənzərə ... 36
2.9.1. Demoqrafik struktur ... 36
2.9.2. Bacarıq və texnoloji hazırlıq ... 37
2.9.3. İnnovasiya potensialı ... 37
2.9.4. Kreativ (yaradıcı) iqtisadiyyat ... 37
2.9.5. Platforma və paylaşma iqtisadiyyatı ... 37
2.9.6. İnfrastruktur ... 38
2.9.7. İqtisadi performans (makroiqtisadi sabitlik) ... 38

2.9.8. Təhsil ..... 38
2.9.9. Səhiyyə ..... 38
2.9.10. Sosial inklüzivlik və bərabərlik ..... 39
2.9.11. Yekun ümumiləşdirmə ..... 39
III Hissə: QLOBAL NƏTİCƏLƏR VƏ REYTİNQLƏR ..... 40
3.1. Ümumi reytinq və əsas nəticələr ..... 40
3.1.1 Ümumi reytinq (15 ölkə) ..... 40
3.2. Korrelyasiya matrisi və struktur əlaqələr ..... 44
3.2.1. Struktur əlaqələr və "drayver" komponentlər ..... 45
3.2.2. Əsas nəticələr: ..... 45
3.2.3. Subindekslərin öz aralarındakı struktur əlaqələr ..... 46
3.3. Input-Output Təhlili ..... 47
3.4. Səmərəlilik göstəriciləri ..... 49
3.5. Performans kateqoriyaları ..... 49
3.6. Regional müqayisələr ..... 49
3.6.1. Regional bloklar üzrə ümumi mənzərə ..... 50
3.6.2. İƏT Ölkələri ..... 51
3.6.3. CAREC ölkələri ..... 53
3.6.4. TDT Ölkələri ..... 54
3.6.7. Regional siyasət üçün nəticələr və tövsiyələr ..... 55
3.7. Subindekslər üzrə təhlil ..... 56
3.7.1. Bacarıq və texnoloji hazırlıq ..... 56
3.7.2. İnfrastruktur ..... 57
3.7.3. İqtisadi performans ..... 58
3.7.4. Təhsil ..... 59
3.7.5. Səhiyyə ..... 60
3.7.6. Sosial inklüzivlik ..... 61
3.7.7. Demoqrafik struktur ..... 62
3.7.8. İnnovasiya ..... 63
3.7.9. Kreativ iqtisadiyyat ..... 64
3.7.10. Platforma və paylaşım iqtisadiyyatı ..... 65
IV Hissə. ÖLKƏ PROFİLLƏRİ ..... 66
4.1. Ölkələrin ümumi profili ..... 66

4.2. Lider qrup və yüksək performanslı ölkələr ... 67
4.3. Orta performanslı və “təqib edən” ölkələr ... 68
4.4. Aşağı performanslı ölkələr və struktur məhdudiyyətlər ... 70
4.5. Ölkəlin təhlilləri ... 72
V Hissə. Azərbaycan üzrə sistemləşdirilmiş təhlil və siyasət yol xəritəsi ... 103
5.1. İcra xülasəsi ... 103
5.2 Mövqe və input-output diaqnostikası ... 103
5.3. Komponent profili və struktur boşluqlar ... 103
5.4. Strateji prioritetlər və siyasət paketi ... 105
5.5. Monitorinq üçün ölçülə bilən göstəricilər (KPI-lar) ... 107
5.6. Azərbaycan və keçid iqtisadiyyatları üzrə strateji transformasiya hesabatı ... 107
5.7. Azərbaycanın Yeni Nəsil İqtisadiyyata keçid strategiyası: "Bacarıqdan dəyərə" 108
VI Hissə. Nəticə və strateji tövsiyələr ... 110
6.1. Gələcək trendlər və ssenario analizi (2025-2030) ... 110
6.2 Risk Analizi və Çağırışlar ... 111
6.3. Yekun nəticələr və siyasət tövsiyələri ... 111
6.3.1. Yekun nəticələr ... 111
6.3.2. Siyasət tövsiyələri ... 112
6.3.3. Yekun qiymətləndirmə ... 112
6.3.4. Strateji tövsiyələr ... 114
6.4. Metodologiyanın təkmilləşdirilməsi və gələcək istiqamətlər ... 116
6.4.1. Mövcud metodologiyanın güclü və zəif tərəfləri ... 116
6.4.2. Gələcək trendlər ... 117
6.5. Strateji Hesabat və Yol Xəritəsi: Transformasiya Strategi-yası 2030 ... 117
6.6. Regional strateji matris (genişləndirilmiş) ... 118
ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR SİYAHISI ... 120
Əlavələr ... 123
Əlavə A. Texniki metodologiya ... 123
A.1. Hesablama metodologiyası ... 123
A.1.1. Məlumatların hazırlanması ... 123
A.1.2. Normallaşdırma ... 123
A.1.3. Neqativ yönlü göstəricilərin tərsinə çevrilməsi. ... 124
A.1.4. Çəki təyinetmə ... 124

A.1.5. Aqreqasiya ........ 125
A.2. Korrelyasiya analizinin rolu ........ 126
Əlavə B. Göstəricilərin tam siyahısı ........ 128
Əlavə C. Ölkələr üzrə detallı nəticələr ........ 132
Cədvəl C.1. Ölkələr üzrə subindeks balları və YNİİ ........ 132
Cədvəl C.2. Input-Output balansı ........ 133
Cədvəl C.3. Qruplar üzrə xülasə ........ 134
Əlavə D. YNİİ 2025 - ƏTRAFLƏ STATİSTİK TƏHLİL HESABATI ........ 135
D.1. İcra xülasəsi ........ 135
D.2. Əsas statistik xülasə ........ 135
D.3. Korelyasiya təhlili ........ 135
D.4. REQRESSIYA TƏHLİLİ ........ 137
D.5. PROQNOZLAŞDIRMA: AZƏRBAYCAN 2030 ........ 140
D.6. ƏSAS NƏTİCƏLƏR VƏ TÖVSİYƏLƏR ........ 142
D.7. METODOLOJİ QEYDLƏR ........ 143

# ÖN SÖZ

***Yeni Nəsil İqtisadiyyat İndeksinin (YNİİ)*** *Avrasiya və Mərkəzi Asiyanın 15 strateji əhəmiyyətli iqtisadiyyatında innovasiya hazırlığını və yeni nəsil transformasiya potensialını ölçən qabaqcıl kompozit indeksdir.*

*İndeks 60-dan çox etibarlı göstərici əsasında 10 əsas subindeks üzrə qiymətləndirmə aparır. Bu qiymətləndirmə ölkələrin rəqəmsal hazırlıq səviyyəsini, innovasiya ekosistemlərinin gücünü, platforma iqtisadiyyatının dərinliyini və yeni nəsil inkişaf modelinə keçid imkanlarını müqayisəli şəkildə ortaya qoyur.*

*YNİİ hesabatı siyasət formalaşdırılması üçün təkcə "kim neçənci yerdədir?" sualına cavab vermir. O eyni zamanda "niyə belədir?" və "nə etmək lazımdır?" suallarını cavablandırmaq üçün analitik çərçivə, göstərici xəritəsi və məqsədyönlü tövsiyələr təqdim edir.*

*YNİİ 2025 sadəcə rəqəmlər toplusu deyil - bu, çağırışdır:*

- *hökumətlər üçün rəqəmsal transformasiyanı sürətləndirmək;*
- *biznes üçün innovasiya ekosistemlərini gücləndirmək;*
- *cəmiyyət üçün isə inklüziv və davamlı iqtisadiyyata doğru irəliləmək.*

*Bu hesabat ölkələrin güclü və inkişaf tələb edən sahələrini görünən edir və gələcək strategiyalar üçün ölçülə bilən hədəflər və mərhələli siyasət addımları təqdim edir.*

*YNİİ 2025 aşağıdakı auditoriyalar üçün praktik yönümlü qərar dəstəyi yaradır:*

- *hökumətlər: islahat prioritetləri, ölçülə bilən hədəflər, mərhələli yol xəritələri;*
- *biznes və sənaye liderləri: innovasiya və rəqəmsal transformasiya boşluqları, imkan xəritələri;*
- *investorlar və tərəfdaşlar: dinamik ekosistemlərin aşkarlanması, risk–imkan müqayisəsi;*
- *tədqiqatçılar: göstərici bazası, müqayisəli təhlil çərçivəsi, regional dashboardlar.*

*Bu hesabat ekspertlərin, tədqiqatçıların və məlumat təminatçılarının birgə əməyinin nəticəsidir. Xüsusilə, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, OECD və digər beynəlxalq təşkilatların açıq məlumat bazalarına görə minnətdarlığımızı bildiririk.*

*Hesabatın hazırlanmasında iştirak edən bütün İqtisadi Elmi Tədqiqat İnstitutunun əməkdaşlarına, ekspertlərə, rəyçilərə və məsləhətçilərə dərin təşəkkürümüzü bildiririk.*

***i.e.d, prof. Arzu Hüseynova***

# Qısaltmalar və terminlər

***Qısaltmalar:***

**YNİİ** - Yeni Nəsil İqtisadiyyat İndeksi
**ETTKİ** - Elmi-Tədqiqat və Təcrübə-Konstruktor İşləri
**ÜDM** - Ümumi Daxili Məhsul
**ÜDM (PPP)-** Alıcılıq Qabiliyyəti Pariteti üzrə Ümumi Daxili Məhsul.
**GER:** Brutto qeydiyyat nisbəti (*Gross Enrolment Ratio*).
**STEM:** Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat sahələri üzrə təhsil.
**İƏT** - İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO)
**TDT** - Türk Dövlətləri Təşkilatı
**CAREC** - Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı
**OECD** - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
**BMT** - Birləşmiş Millətlər Təşkilatı
**WEF** - Dünya İqtisadi Forumu
**STEM** - Science, Technology, Engineering, Mathematics

***Əsas Terminlər:***

**Input Bloku:** Ölkənin potensial və resurslarını əks etdirən göstəricilər toplusu
**Output Bloku:** Potensialın reallaşma dərəcəsini göstərən nəticə göstəriciləri
**Səmərəlilik Nisbəti:** Output/Input nisbəti, resurslardan istifadə səmərəliliyini göstərir
**Z-score:** Statistik normallaşdırma metodu
**Kompozit İndeks:** Müxtəlif göstəricilərin çəkili birləşməsi əsasında yaranan ümumi göstərici

***Subindekslər***

**BTH:** Bacarıq və Texnoloji Hazırlıq (İnternet istifadəsi, mobil abunəlik və rəqəmsal bacarıq)
**INF:** İnfrastruktur.
**İP:** İqtisadi Performans (ÜDM artımı, inflyasiya və işsizlik göstəriciləri).
**TEH:** Təhsil (Savadlılıq, ali təhsilə cəlb olunma və PISA nəticələri).
**SEH:** Səhiyyə (HALE - sağlam ömür uzunluğu, səhiyyə xərcləri və UHC indeksi).
**SOI:** Sosial İnkluzivlik (Gender bərabərliyi, gəlir bərabərsizliyi və yoxsulluq həddi).
**DS:** Demoqrafik Struktur (İşçi yaşlı əhalinin payı və yaş asılılıq əmsalı).
**INN:** İnnovasiya (ETTKİ xərcləri, patent müraciətləri və yüksək texnoloji ixrac).
**KR:** Kreativ İqtisadiyyat (Kreativ mal və xidmət ixracı, kreativ sektor məşğulluğu).
**PL:** Platforma və Paylaşım İqtisadiyyatı (Platforma işçiləri və rəqəmsal xidmət istifadəsi).

# İndeks haqqında: Yeni nəsil iqtisadiyyatın ölçülməsinə keçidin məğzi

Yeni Nəsil İqtisadiyyat İndeksi (YNİİ) XXI əsrdə iqtisadi rəqabətqabiliyyətliliyi müəyyən edən əsas transformasiya meyilləri - rəqəmsal transformasiya, innovasiya yönümlü inkişaf, insan kapitalının artan rolu və sosial inklüzivlik kontekstində ölkələrin hazırlıq (potensial) və adaptasiya səviyyəsini ölçən kompozit indeksdir. Müasir dövrdə iqtisadi inkişafın məzmunu dəyişmiş, “artım” anlayışı təkcə istehsalın və ya gəlirin yüksəlməsi ilə deyil, həmin artımın bilik, texnologiya və məhsuldarlıq əsasında necə formalaşması, cəmiyyətə hansı keyfiyyətdə paylanması və nə dərəcədə dayanıqlı olması ilə ölçülməyə başlamışdır. Bu səbəbdən YNİİ ənənəvi makroiqtisadi göstəriciləri, xüsusilə ÜDM-mərkəzli yanaşmaları tamamlayaraq inkişafın keyfiyyət, dayanıqlılıq və inklüzivlik ölçülərini çoxölçülü indikator sistemi vasitəsilə qiymətləndirir.

YNİİ-nin analitik yanaşması ölkələrin yalnız “nə qədər” böyüdüyünü deyil, “necə” inkişaf etdiyini və sosial-iqtisadi transformasiyanın hansı dərinlikdə reallaşdığını görünən edir. İndeks bunu üç əsas müstəvidə təmin edir:

1. resurs və struktur hazırlığının ölçülməsi;
2. həmin hazırlığın nəticələrə çevrilməsinin qiymətləndirilməsi;
3. nəticələrin siyasət prioritetlərinə çevrilməsi üçün diaqnostik şərh mexanizminin təqdim edilməsi.

Beləliklə, YNİİ bir tərəfdən ölkələrin yeni iqtisadi mərhələyə keçid üçün hansı səviyyədə hazır olduğunu göstərir, digər tərəfdən isə hazırlığın real nəticələrə çevrilməsində hansı məhdudiyyətlərin mövcud olduğunu müəyyənləşdirir.

YNİİ-nin əsas məqsədi ölkələri təkcə reytinq cədvəlində sıralamaq deyil. İndeks eyni zamanda ölkələrin güclü və zəif tərəflərini, potensial-nəticə boşluqlarını və strateji prioritet sahələri sistemli şəkildə müəyyənləşdirərək siyasət formalaşdırılması üçün tətbiq oluna bilən qərar dəstəyi çərçivəsi təqdim edir. Nəticələr səbəb-nəticə iddiası daşımadan müqayisəli diaqnostika yaradır və daha dərin sektor təhlilləri üçün istiqamətverici xəritə rolunu oynayır. Bu yanaşma qərarvermə prosesini “ümumi artım”dan “transformasiyanın keyfiyyəti”nə yönəldir və resursların daha düzgün prioritetləşdirilməsinə imkan verir.

**İndeksin yaranma səbəbləri: Niyə yeni ölçmə lazımdır?**

Qlobal iqtisadiyyatın inkişaf trayektoriyası son onillikdə köklü şəkildə dəyişmişdir. Rəqəmsal transformasiya istehsal, xidmət və idarəetmənin bütün səviyyələrinə nüfuz edir, platforma modelləri yeni bazar arxitekturaları yaradır. İnnovasiya yalnız laboratoriya mərhələsi deyil, o sürətli kommersiyalaşma və ekosistem idarəçiliyi ilə ölçülür. Yaşıl keçid isə resurslardan istifadə, enerji səmərəliliyi və ekoloji dayanıqlılıq kimi meyarları iqtisadi rəqabətin mərkəzinə gətirir. Eyni zamanda, demoqrafik dəyişikliklər, urbanizasiya, miqrasiya, əmək bazarının strukturu və sosial bərabərlik kimi faktorlar iqtisadi performansın uzunmüddətli dayanıqlılığı üçün həlledici rol oynayır.

Bu yeni konfiqurasiyada ənənəvi indikatorlar - ÜDM, ixrac həcmi, inves-

tisiya axınları və əhali sayı ölkənin gələcək potensialını və transformasiya qabiliyyətini tam əks etdirmir. Məsələn, yüksək ÜDM artımı rəqəmsal bacarıqlar, innovasiya infrastrukturu və inklüziv sosial sistemlə dəstəklənmirsə, uzunmüddətli dayanıqlılıq zəifləyə bilər. Eyni qayda ilə, resurs bolluğu və ya infrastruktur mövcudluğu innovasiya nəticələrinə çevrilmirsə, real rəqabət üstünlüyü məhdud qalır. YNİİ məhz bu "ölçmə boşluğunu" doldurmaq məqsədi ilə formalaşdırılmışdır: indeks iqtisadiyyatın həm potensialını, həm də faktiki nəticələrini eyni çərçivədə qiymətləndirərək ölkələrin həqiqi iqtisadi gücünü, çevrilmə səmərəliliyini və ekosistem təsirini ölçür.

YNİİ-nin yaradılmasının praktiki motivasiyası da buradan qaynaqlanır: ölkələr üçün təkcə inkişaf səviyyəsini göstərən indikatorlar deyil, eyni zamanda islahatların haradan başlamalı olduğunu göstərən "diaqnostik alət" tələb olunur. YNİİ bu ehtiyacı qarşılamaq üçün resurs-hazırlıq komponentlərini nəticələrlə əlaqələndirir və siyasət dizaynında prioritetləşdirməni daha məlumatlı şəkildə qurmağa imkan yaradır.

### Metodoloji yenilik: İkili arxitektura (Input-Output) və "çevrilmə səmərəliliyi"

YNİİ metodologiyası beynəlxalq standartlara uyğun qurulmuşdur və aşağıdakı mərhələlərə əsaslanır:

- ❖ göstəricilərin seçimi və mənbələrin yoxlanması;
- ❖ normallaşdırma və müqayisəlilik (ölkələrarası ölçüləbilənlik);
- ❖ çəkiləndirmə (sütunlar üzrə paylar, o cümlədən: rəqəmsal bacarıq və infrastruktur - 12%, innovasiya ekosistemləri - 15%, platforma iqtisadiyyatı - 9% və s.);
- ❖ həssaslıq və robustluq yoxlamaları (nəticələrin dayanıqlığının test edilməsi).

İndeks Input-Output yanaşması ilə ölkələrin:

- giriş potensialını (institusional mühit, insan kapitalı, infrastruktur və rəqəmsal hazırlıq, bazar və biznes mühiti, maliyyə və innovasiya resursları),

- çıxış nəticələrini (innovasiya nəticələri, məhsuldarlıq və texnoloji transformasiya, rəqəmsal ticarət və platforma təsirləri, rəqəmsal xidmətlər və sosial rifah göstəriciləri) vahid çərçivədə birləşdirərək reytinqi formalaşdırır.

YNİİ-nin əsas metodoloji yeniliyi onun ikili strukturundadır. İndeks iki funksional blok üzərində qurulur:

- **Input bloku** - resurslar, institusional və struktur imkanlar, hazırlıq komponentləri;
- **Output bloku** - faktiki nəticələr, reallaşma göstəriciləri, innovasiya və məhsuldarlıq təsiri.

Bu yanaşma ölkələrin yalnız "nəyə malik olduğunu" deyil, həm də "nə əldə etdiyini" və "nə dərəcədə effektiv çevirdiyini" ölçür. Müasir iqtisadiyyatda resursların mövcudluğu ilə yanaşı, resursların nəticəyə çevrilmə sürəti və keyfiyyəti (innovasiya, məhsuldarlıq, ekosistem təsiri, inklüziv nəticələr) əsas rəqabət göstəricisinə çevrildiyi üçün YNİİ-nin ölçmə məntiqi praktiki qərarverməyə yaxınlaşır.

İkili arxitektura bir sıra analitik üstünlüklər yaradır. Birincisi, ölkələrdə "güclü hazırlıq-zəif nəticə" tipli strukturları aşkar edir və bununla da islahatların hədəfini resurs artımı ilə məhdudlaşdırmadan icra mexanizmlərinə, koordinasiya institutlarına və kommersiyalaşma kanallarına yönəltməyə imkan verir. İkincisi,

"zəif hazırlıq - nisbətən yaxşı nəticə" tipli strukturları aşkar etməklə qısamüddətli üstünlüklərin orta müddətdə dayanıqlılıq risklərini göstərə bilir. Üçüncüsü, hazırlıq və nəticə arasında uyğunluq olan ölkələrdə ekosistem səmərəliliyinin və institusional mexanizmlərin daha funksional işləməsi ehtimalını gücləndirir.

Bu çərçivədə YNİİ-nin mərkəzi anlayışlarından biri "çevrilmə səmərəliliyi"dir: yəni potensialın real nəticəyə çevrilməsi. Bu səmərəlilik müasir iqtisadi sistemlərdə innovasiyanın kommersiyalaşması, texnoloji transfer, rəqəmsal bacarıqların əmək bazarına inteqrasiyası, infrastrukturdan məhsuldarlıq kanalı kimi istifadə və sosial sistemlərin inklüziv nəticələr yaratması ilə bilavasitə bağlıdır.

**Əhatə dairəsi: YNİİ 2025-in I buraxılışı (N=15) və seçim məntiqi**

YNİİ 2025-in I buraxılışı Avrasiya və Mərkəzi Asiya məkanında seçilmiş 15 ölkəni (N=15) əhatə edir. Seçim çərçivəsi əsasən aşağıdakı regional platformalarla bağlı ölkələri daxil edir:

- İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT);
- Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC);
- Türkdilli Dövlətlərin Təşkilatı (TDT) ölkələri.

Bu ölkələr coğrafi, iqtisadi və mədəni baxımdan müxtəlif olsa da, onları birləşdirən əsas cəhət inkişaf edən və ya keçid iqtisadiyyatı xüsusiyyətləridir. Bu reallıq indeksin ilkin buraxılışının strateji üstünlüyünü formalaşdırır: transformasiya gündəliyinin ən aktual olduğu məkanlarda ölkələrin rəqəmsal, innovasiya və insan kapitalı göstəriciləri arasında fərqlər daha aydın görünür və YNİİ bu fərqləri sistemləşdirilmiş diaqnostik çərçivədə təqdim edir. Eyni zamanda, müxtəliflik indeksin metodoloji davamlılığını (robustluğunu) sınaqdan keçirməyə, indikatorların müqayisəliliyini yoxlamağa və gələcək buraxılışlar üçün təkmilləşdirmə ehtiyaclarını daha düzgün müəyyənləşdirməyə imkan verir.

YNİİ-nin subindeks məntiqi yeni nəsil iqtisadiyyatın əsas sütunlarını əhatə edir və inkişafın yalnız iqtisadi deyil, eyni zamanda sosial və institusional ölçülərini də birləşdirir. 2025 buraxılışında indeks 10 subindeks üzrə qurulmuşdur:

- Demoqrafik struktur;
- Bacarıq və texnoloji hazırlıq;
- İnnovasiya;
- Kreativ iqtisadiyyat;
- Platforma və paylaşma iqtisadiyyatı;
- İnfrastruktur;
- İqtisadi performans;
- Təhsil;
- Səhiyyə;
- Sosial inklüzivlik.

Bu quruluş transformasiyanın "baza imkanları" ilə "nəticə ölçüləri"ni eyni platformada birləşdirir.

**Əsas nəticələr**

- **Çin qlobal liderdir – 74.4 bal**
- **Azərbaycan – 42.1 bal** ilə regional rəqiblər arasında yüksəliş trayektoriyası nümayiş etdirir
- İlk dəfə TDT, CAREC və ECO kimi regional bloklar üzrə müqayisəli reytinqlər təqdim olunur
- Hesabata ölkələr üzrə SWOT profilləri, subindeks heatmapləri və 2030 strateji yol xəritələri daxil edilmişdir.

YNİİ demoqrafik dividendlərin rəqəmsal imkanlarla qovuşduğu nöqtələri hədəfləyərək, gələcəyin innovasiya ekosistemlərini bu gün qurmaq üçün strateji və analitik istinad mənbəyi rolunu oynayır.

**Hesabatın strukturu: oxunuş məntiqi və fəsillərin funksiyası**

Bu hesabat mərhələli oxunuş məntiqinə əsaslanır və altı əsas hissədən ibarətdir.

**I hissə** indeksin konseptual əsaslarını təqdim edir: yeni nəsil iqtisadiyyat anlayışı, indeksin nəzəri çərçivəsi, Input-Output məntiqi və interpretasiya yanaşması burada izah olunur. Bu hissə oxucuya indeksin niyə yaradıldığını və hansı məntiqə əsaslandığını başa düşmək üçün baza verir.

**II hissə** metodologiyanı ətraflı şərh edir: indikatorların seçimi, mənbə yoxlaması, normallaşdırma prosedurları, neqativ indikatorların çevrilməsi, çəkilən-dirmə və aqreqasiya mərhələləri, həmçinin robustluq yoxlamalarının məntiqi bu hissədə sistemli şəkildə təqdim olunur. Məqsəd metodologiyanın şəffaflığını təmin etmək və nəticələrin necə formalaşdığını aydın göstərməkdir.

**III hissə** qlobal nəticələri təqdim edir: yekun reytinq, ümumi bal üzrə sıralama, subindeks profilləri, regional müqayisələr və blok təhlilləri burada yer alır. Bu hissə ölkələrin ümumi performansını və əsas fərqləndirici faktorları üzə çıxarır.

**IV hissə** ölkə profillərini təqdim edir: hər ölkə üzrə güclü və zəif tərəflər, Input-Output boşluğu, potensial-nəticə münasibətləri və xüsusi struktur xüsusiyyətləri ayrıca analitik çərçivədə verilir. Bu hissə praktiki siyasət şərhi üçün ən tətbiqi bölmələrdən biridir.

**V hissə** Azərbaycan üzrə yekunlaşdırılmış ümumi nəticələri və strateji tövsiyələr təqdim edir: prioritet sahələr, siyasət reaksiyaları, institusional gücləndirmə istiqamətləri və 2030-cu il üzrə perspektivli yol xəritəsi elementləri burada formalaşdırılır.

**VI hissə** yekunlaşdırılmış ümumi nəticələr və strateji tövsiyələr təqdim edir: prioritet sahələr, siyasət reaksiyaları, institusional gücləndirmə istiqamətləri və 2030-cu il üzrə perspektivli yol xəritəsi elementləri burada formalaşdırılır.

**Hesabatın məqsədi: təqdimat, müqayisə, diaqnostika və tövsiyə**

Bu hesabatın əsas məqsədi YNİİ-nin konseptual və metodoloji çərçivəsini möhkəm əsaslarla təqdim etmək və 2025-ci il üzrə nəticələri siyasət yönümlü interpretasiya müstəvisinə çıxarmaqdır. Hesabatın məqsədləri aşağıdakılardır:

1. YNİİ metodologiyasını şəffaf və ətraflı şəkildə təqdim etmək;
2. 2025-ci il üzrə qlobal reytinq nəticələrini və yekun indeks ballarını təqdim etmək;
3. regional və ölkə səviyyəsində müqayisəli təhlillər aparmaq (bloklar, qruplar, profillər və subindeks dinamikası üzrə);
4. siyasət hazırlayanlar və tədqiqatçılar üçün praktiki tövsiyələr vermək, prioritet sahələri göstərmək;
5. indeksin gələcək inkişafı üçün metodoloji baza yaratmaq (indikatorların genişləndirilməsi, məlumat keyfiyyətinin artırılması, robustluq mexanizmləri, gələcək buraxılışların monitorinq çərçivəsi).

Bu məqsədlər YNİİ-nin ölçmə məntiqi ilə birbaşa bağlıdır: indeksin fəlsəfəsi odur ki, resurs və institusional imkanların mövcudluğu yetərli deyil. Əsas məsələ bu imkanların real iqtisadi və sosial nəticələrə çevrilmə effektivliyidir. Buna görə hesabatda yekun reytinqlə yanaşı, subindeks profilləri və Input-Output diaqnostikası xüsusi yer tutur.

**Hədəf auditoriyası və istifadə məqsədi: qərar dəstəyi çərçivəsi**

Hesabat dövlət qurumları, özəl sektor, investorlar, tədqiqatçılar və inkişaf tərəfdaşları üçün strateji diaqnostika və

qərar dəstəyi aləti kimi nəzərdə tutulur. Dövlət qurumları üçün YNİİ milli strategiyalarda prioritetləşdirmə, resurs bölgüsü və islahat gündəliyinin qurulmasına analitik baza yaradır. Özəl sektor və investorlar üçün indeks bazarların struktur hazırlığı, innovasiya ekosisteminin yetkinliyi və rəqəmsal mühitin səmərəliliyi barədə müqayisəli siqnal verir. Tədqiqatçılar üçün YNİİ indikatorlar bazası və blok strukturu empirik analizlər (korelyasiya, klasterləşmə, robustluq yoxlamaları, panel təhlillər) üçün sistemli çərçivə yaradır. İnkişaf tərəfdaşları üçün isə indeks regional əməkdaşlıq, proqram dizaynı və texniki yardım paketlərinin hədəflənməsi baxımından praktik referans rolunu oynayır.

YNİİ nəticələri reytinq cədvəlləri ilə yanaşı, ölkə profilləri, Input-Output təhlili, regional blok müqayisələri (İƏT, TDT, CAREC) və 2030-cu il üzrə perspektivli siyasət istiqamətləri ilə şərh olunur. Bu yanaşma hesabatı "sadəcə nəticə təqdimatı"ndan çıxarıb "tətbiq oluna bilən analitik sənəd"ə çevirir.

**Nəticələrin interpretasiyası: 3 səviyyəli oxunuş və siyasət üçün istifadə**

YNİİ nəticələrinin şərhi üç əsas səviyyədə aparılır:

1. **Yekun indeks balı və reytinq** - ölkənin ümumi performansını ümumiləşdirir və müqayisəli mövqeyini göstərir;
2. **Subindeks profili** - 10 subindeks üzrə nisbi üstünlükləri və zəiflikləri üzə çıxarır;
3. **Input-Output diaqnostikası** - hazırlıq komponentlərinin nəticələrə çevrilmə dərəcəsini ölçür.

Yekun bal ümumi mənzərə yaratsa da, siyasət prioritetlərinin seçimi üçün əsas interpretasiya subindeks profili və Input-Output münasibətləri üzərindən aparılmalıdır. Çünki subindekslər ölkənin hansı sahələrdə daha güclü resurs bazasına malik olduğunu və hansı sahələrdə geridə qaldığını göstərir. Input-Output diaqnostikası isə həmin sahələrdə "niyə nəticə alınmır?" sualına daha yaxın cavab verir və nəticəyönümlü siyasət dizaynını dəstəkləyir.

**Şərh bələdçisi: Input-Output boşluğu və dörd tip diaqnostik struktur**

YNİİ-nin əsas analitik ölçülərindən biri Input-Output boşluğudur. Bu boşluq ölkənin resurs və hazırlıq səviyyəsinin faktiki nəticələrə çevrilmə dərəcəsini göstərir və aşağıdakı dörd tip strukturla izah olunur:

**1) Input yüksək, Output aşağı - "istifadə olunmamış potensial"**

Bu profil ölkənin resurs və institusional imkanlara malik olduğunu, lakin bu imkanların innovasiya, məhsuldarlıq və ekosistem nəticələrinə çevrilməsində məhdudiyyət yaşadığını göstərir. Tipik səbəblər icra mexanizmlərinin zəifliyi, innovasiyanın kommersiyalaşma kanallarının yetərsizliyi, texnoloji transferin zəif olması, koordinasiya çatışmazlıqları və məhsuldarlıq kanallarında tıxacların mövcudluğu ola bilər.

**2) Input və Output paralel yüksək – hazırlıq-nəticə uyğunluğu**

Bu struktur hazırlıq imkanlarının nəticələrə çevrildiyini göstərir və dayanıqlı ekosistem, funksional institutlar, nəticəyönümlü idarəetmə mexanizmləri ehtimalını artırır.

**3) Input aşağı, Output nisbətən yüksək - qısamüddətli nəticə, lakin struktur riski**

Müəyyən nəticələr mövcud olsa da, zəif resurs bazası orta müddətdə dayanıqlılıq riskini yüksəldə bilər. Bu halda prioritet hazırlıq komponentlərinin gücləndirilməsi, xüsusilə bacarıq, infrastruktur və institutların inkişafı olur.

**4) Input aşağı, Output aşağı - fundamental struktur çağırışlar.**

Bu profil əsas sahələrdə investisiya və institusional islahat ehtiyacının yüksək olduğunu, transformasiya gündəliyinin daha baza mərhələsində qaldığını göstərir.

**Məlumat əhatəsi, metodologiyanın icmalı və məhdudiyyətlər**

YNİİ-nin məlumat bazası beynəlxalq etibarlı statistika və indikator platformalarına əsaslanır. İndikatorlar tematik uyğunluq, müqayisəlilik, ölçüləbilənlik və məlumat keyfiyyəti meyarlarına görə seçilir.

Mənbələrə Dünya Bankı, BMT agentlikləri, OECD, WEF və digər institutların açıq məlumat bazaları daxildir.

Ölkələrarası müqayisəliliyi təmin etmək üçün standartlaşdırma prosedurları tətbiq olunur. Əsas normallaşdırma kimi min-max transformasiyası istifadə edilir və neqativ istiqamətli indikatorlar indeks məntiqinə uyğun çevrilir. İndikatorlar subindekslər üzrə aqreqasiya edilir və çəkiləndirmə ilə yekun indeks balı formalaşdırılır. İnterpretasiya üçün isə Input-Output bloklaşdırması tətbiq olunur.

Kompozit indeks kimi YNİİ məlumatların tamlığına və ölçmə xətalarına həssasdır. Ölkələr üzrə metodoloji fərqlər və məlumat boşluqları nəticələrin interpretasiyasında nəzərə alınmalıdır. Bu səbəbdən YNİİ nəticələri səbəb-nəticə deyil, əsasən müqayisəli diaqnostika məqsədi daşıyır. Yekun reytinqin düzgün oxunuşu subindeks profilləri, Input-Output strukturu və kontekstual amillərlə birlikdə aparılmalıdır.

**Əsas mesajlar və analitik nəticələr (xülasə çərçivəsi)**

YNİİ 2025 nəticələri göstərir ki, bir sıra ölkələrdə Input göstəriciləri yüksək olsa da, Output nəticələrinin zəif qalması "istifadə olunmamış potensial"ı üzə çıxarır. Bu, siyasət gündəliyində təkcə resurs artırımı deyil, eyni zamanda icra, məhsuldarlıq və kommersiyalaşma mexanizmlərinin gücləndirilməsini prioritetləşdirir. Empirik müşahidələr YNİİ performansında təhsil, bacarıqlar, innovasiya və infrastruktur kimi struktur determinantların həlledici rolunu vurğulayır. Liderlik nümunəsi olaraq Çin 74.42 bal ilə ön sıradadır (Output: 33.45) və lider performans - innovasiya, platforma dinamikası və nəticəyönümlü ekosistem mexanizmlərinin birgə təsiri ilə formalaşır. Regional baxımdan TDT məkanında rəqəmsal bacarıqlar və infrastruktur üzrə irəliləyişlər müşahidə olunur, lakin innovasiya ekosisteminin dərinləşdirilməsi ümumi çağırış olaraq qalır. CAREC məkanında isə üzv ölkələr arasında fərqlərin böyük olması regional koordinasiya və birgə dəyər zənciri yanaşmasının aktuallığını artırır.

Azərbaycan üzrə profil Input-Output yanaşmasının tətbiqi dəyərini daha aydın göstərir: Azərbaycan 42.11 bal ilə 8/15 mövqedədir. Input (34.11) Output-dan (8.00) xeyli yüksəkdir və liderlə Output fərqi 25.45 bənd təşkil edir. Bu diaqnostika innovasiya nəticələrinin artırılması (kommersiyalaşma, patent, texnoloji transfer), məhsuldarlıq və iqtisadi performans üzrə Output mexanizmlərinin gücləndirilməsi, platforma-ekosistem göstəricilərində real təsirin yüksəldilməsi kimi prioritetləri önə çıxarır.

## Azərbaycanın iqtisadi transformasiya mənzərəsi

- **Ümumi Göstəricilər**

**Ümumi Bal:** 42.11 / 100

**Qlobal Reytinq:** 8-ci yer (15 ölkə arasında)

**Regional Status:** Median səviyyə (Orta bal: 43.36)

**Əsas Bloklar üzrə Bal:**

**Giriş (Input):** 34.11 (Güclü infrastruktur və resurslar)

**Çıxış (Output):** 8.00 (İqtisadi nəticəyə çevrilmə dərəcəsi)

- **10 Sub indeks üzrə Performans**

Azərbaycanın yeni nəsil iqtisadiyyatdakı mövqeyi aşağıdakı strateji subindekslər üzrə qruplaşdırılıb:

| Yüksək Performanslı Sahələr | Strateji İnkişaf Sahələri |
|---|---|
| 📍 **İnfrastruktur:** Rəqəmsal şəbəkə və əlçatanlıq. | ⚠️ **İnnovasiya:** Patent fəallığı və ETTKİ. |
| 📍 **Demoqrafik Dividend:** Gənc və dinamik əhali. | ⚠️ **Məhsuldarlıq:** Texnoloji transformasiya. |
| 📍 **Təhsil:** Savadlılıq və baza təhsili. | ⚠️ **Platforma İqtisadiyyatı:** Paylaşma modelləri. |
| 📍 **Sosial İnklüzivlik:** Rəqəmsal xidmətlərə çıxış. | ⚠️ **Kreativ İqtisadiyyat:** Qeyri-neft ixracı. |

- **SWOT Analizi (Qısa İcmal)**

Güclü Tərəflər (Strengths): Sürətli rəqəmsallaşma hazırlığı və güclü dövlət dəstəyi.

Zəif Tərəflər (Weaknesses): Elmi tədqiqat işlərinin (R&D) kommersiyalaşdırılmasının aşağı səviyyədə olması.

İmkanlar (Opportunities): TDT və CAREC regionu daxilində "Rəqəmsal Hub" olmaq potensialı.

Təhdidlər (Threats**):** İnsan kapitalının texnoloji dəyişikliklərdən geri qalma riski.

- **"İstifadə Olunmamış Potensial" – nə deməkdir?**

Azərbaycanın Input balının (34.11) Output balından (8.00) təxminən 4 dəfə yüksək olması göstərir ki:

- Ölkədə kifayət qədər infrastruktur və kadr hazırlığı mövcuddur.
- Lakin bu resurslar hələ ki, yüksək texnologiyalı məhsul ixracına və innovativ xidmətlərə tam çevrilməyib.
- Liderə (Çin) nisbətən fərq: Output sahəsində 25.45 ballıq artım potensialı mövcuddur.

- **2030-cu ilə doğru 3 strateji addım**

1) Patent və müəlliflik: Kreativ sənayelərdən əldə edilən gəlirlərin artırılması.
2) ETTKİ investisiyaları: Elm və təcrübə-konstruktor işlərinə ayrılan vəsaitin ÜDM-də payının artırılması.
3) Rəqəmsal bazar: Yerli platforma iqtisadiyyatı subyektlərinin regional bazarlara çıxışının dəstəklənməsi.

# Giriş

Qloballaşma, rəqəmsal transformasiya və iqlim dəyişikliklərinin sürətləndiyi müasir dövrdə iqtisadiyyatın mahiyyəti köklü şəkildə dəyişir. Ənənəvi sənaye və resurs yönümlü modellər tədricən öz məhdudiyyətlərini daha açıq şəkildə nümayiş etdirir və ölkələrdən bilik, innovasiya, rəqəmsal texnologiyalar, insan kapitalı və sosial inklüzivlik üzərində qurulan yeni inkişaf paradigmalarına keçidi tələb edir. Bu kontekstdə "yeni nəsil iqtisadiyyat" anlayışı ölkələrin XXI əsrin çağırışlarına – rəqəmsal texnologiyaların geniş tətbiqinə, innovativ fəaliyyətin intensivliyinə, dayanıqlı ("yaşıl") inkişaf yanaşmalarına, ağıllı idarəetmə sistemlərinə və sosial-ictimai inklüzivliyə uyğunlaşma səviyyəsini əks etdirən konseptual çərçivə kimi çıxış edir.

Mövcud beynəlxalq indekslər - rəqabətqabiliyyət, insan inkişafı, innovasiya, rəqəmsal iqtisadiyyat, şəbəkəyə hazırlıq, e-hökumət və s. iqtisadi və sosial inkişafın ayrı-ayrı aspektlərini kifayət qədər geniş işıqlandırsa da, yeni nəsil iqtisadiyyatın kompleks, çoxölçülü mahiyyətini bütöv şəkildə əhatə etmir. Bu indekslərin bir qismi daha çox makroiqtisadi və institusional mühitə, digər qismi isə rəqəmsal göstəricilərə və ya sosial-humanitar parametrlərə fokuslanır. Lakin demoqrafik struktur, bacarıq və texnoloji hazırlıq, innovasiya potensialı, kreativ və platforma iqtisadiyyatı, yaşıl və dairəvi iqtisadiyyat elementləri, infrastruktur, insan kapitalı (təhsil və səhiyyə), sosial inklüzivlik və bərabərlik kimi ölçüləri vahid metodoloji çərçivədə birləşdirən kompozit yanaşma hələ kifayət qədər formalaşmamışdır. Bu boşluq xüsusilə keçid iqtisadiyyatları və yeni yaranan bazarlar üçün daha qabarıq görünür.

Təklif edilən YNİİ məhz bu boşluğu doldurmağa yönəlmişdir. YNİİ ölkələrin yeni nəsil iqtisadiyyatın əsas tələblərinə hazırlıq və adaptasiya səviyyəsini ölçməyi hədəfləyən kompozit indikatorlar toplusudur. İndeks təkcə ÜDM-in həcmi və artım tempinə fokuslanan ənənəvi yanaşmadan fərqli olaraq, iqtisadi inkişafın keyfiyyətinə, dayanıqlılığına və resursların daha ədalətli bölgüsünə yönəlmiş yeni paradiqmanı əks etdirir. Burada insan kapitalı, bilik və innovasiya potensialı, rəqəmsal və fiziki infrastrukturun keyfiyyəti, sağlamlıq və təhsil göstəriciləri, sosial inklüzivlik və idarəetmə institutlarının səmərəliliyi iqtisadi rifahın ayrılmaz tərkib hissəsi kimi nəzərdən keçirilir.

YNİİ yeni nəsil iqtisadiyyatın əsas ölçülərini vahid metodoloji çərçivədə izləmək və ölkələrin yeni iqtisadi trendlərə uyğunluğunu kompleks qiymətləndirmək üçün formalaşdırılmışdır. İndeksin başlıca məqsədi müxtəlif ölkələrin iqtisadi inkişafının keyfiyyətini, dalılığını və "yeni nəsil" iqtisadiyyatın tələblərinə uyğunluğunu ümumiləşdirilmiş şəkildə qiymətləndirməkdir. Bu çərçivədə YNİİ ənənəvi göstəriciləri (məsələn, adambaşına ÜDM) tamamlayaraq daha geniş spektrli inkişaf parametrlərini - demoqrafik strukturu, bacarıq və texnoloji hazırlığı, innovasiya ekosistemini, kreativ və platforma iqtisadiyyatını, infrastrukturun vəziyyətini, təhsil və səhiyyə sistemlərinin səviyyəsini, sosial inklüzivlik və bərabərliyi birlikdə nəzərə almağa imkan verir.

Qlobal iqtisadiyyat getdikcə daha çox bilik, texnologiya və insan kapitalı üzərində

qurulduqca, ölkələrin rəqabətqabiliyyətini və rifah səviyyəsini təmin etmək üçün təkcə makroiqtisadi artım templərini izləmək kifayət etmir. Eyni zamanda əhalinin bacarıq səviyyəsi, innovasiya mühitinin yetkinliyi, rəqəmsal və sosial infra-strukturun inkişaf dərəcəsi, sosial inklüzivlik, regionlararası və gender bərabərliyi kimi meyarlar da nəzərə alınmalıdır. Bu baxımdan YNİİ siyasətçilər, biznes liderləri və tədqiqatçılar üçün ölkələrin güclü və zəif tərəflərini müəyyənləşdirmək, struktur prioritetləri formalaşdırmaq və beynəlxalq təcrübədən məqsədyönlü şəkildə faydalanmaq üçün praktik və analitik alət rolunu oynayır.

YNİİ-nin əhatə dairəsi qlobal səviyyədə mümkün qədər çox ölkəni – inkişaf etmiş, inkişaf etməkdə olan və yeni yaranan bazar iqtisadiyyatlarını cəlb etməyə istiqamətlənmişdir. Metodologiya beynəlxalq məlumat bazalarına (Dünya Bankı, BMT, OECD, Dünya İqtisadi Forumu və s.), həmçinin qlobal sorğulara və milli statistika məlumatlarına əsaslanır ki, bu da ölkələrarası qiymətləndirmələrin obyektiv və müqayisəli aparılmasını təmin edir. İndeks illik əsasda yenilənə bilən dinamik alət kimi nəzərdə tutulur və zaman üzrə trendlərin, struktur dəyişikliklərin və siyasət islahatlarının təsirlərinin izlənilməsinə imkan verir. Nəticələr həm qlobal, həm də regional (məsələn, İƏT, TDT, CAREC və s.) kəsimdə, eləcə də ölkədaxili siyasət təhlillərində istifadə oluna biləcək detal səviyyəsində təqdim oluna bilər.

İlkin mərhələdə YNİİ-nin metodoloji yanaşması, subindeks strukturu və input–output fərqinin təhlili yer alaraq, qlobal reytinqin dərin müqayisəli təhlili verilir. indeks 10 sub indeks üzrə 15 ölkə üçün hesablanmışdır. Bu, həm metodologiyanın sınaqdan keçirilməsi, həm də seçilmiş ölkələr qrupu üzrə struktur müqayisələrin aparılması üçün baza rolunu oynayır. Gələcəkdə həm ölkələrin sayının, həm də indikatorların spektrinin genişləndirilməsi hesabına YNİİ-nin əhatə dairəsinin və analitik imkanlarının artırılması, indeksin beynəlxalq müqayisəli tədqiqatlarda, qlobal və regional hesabatlarda, eləcə də milli strateji sənədlərin hazırlanmasında daha geniş tətbiqinə şərait yaradılması planlaşdırılır.

# I Hissə: KONSEPTUAL ÇƏRÇİVƏ

## 1. İndeksin mahiyyəti və məqsədi

YNİİ XXI əsrin iqtisadi reallıqlarını əks etdirən çoxölçülü kompozit göstəricidir. İndeks ənənəvi ÜDM mərkəzli yanaşmalardan fərqli olaraq, iqtisadi inkişafın keyfiyyət, davamlılıq və inklüzivlik ölçülərini ön plana çıxarır.

**İndeksin fərqləndirici xüsusiyyətləri**

| **Aspekt** | **Ənənəvi Göstəricilər** | **YNİİ** |
|---|---|---|
| Fokus | Kəmiyyət (ÜDM,əhali) | Keyfiyyət və səmərəlilik |
| Struktur | Birtərəfli | İkili (Input-Output) |
| Əhatə | Makroiqtisadi | Çoxölçülü (10 sub indeks) |
| Yanaşma | Statik | Dinamik və proqnozlaşdırıcı |
| Məqsəd | Ölçmə | Diaqnostika və siyasət formalaşdırma |

### 1.1 Yeni Nəsil İqtisadiyyat anlayışı və onun əsasları

Qloballaşma, rəqəmsal transformasiya və iqlim dəyişikliklərinin dərinləşdiyi müasir dövrdə iqtisadiyyatın xarakteri hüdudlarını aşır. Müasir dövrdə ÜDM təkbaşına iqtisadi rifahı və gələcək potensialı ölçmək üçün kifayət etmir. sürətlə dəyişir və ənənəvi sənaye modelinin Bu kontekstdə "yeni nəsil iqtisadiyyat" anlayışı ölkələrin XXI əsrin çağırışlarına – rəqəmsal texnologiyaların geniş tətbiqinə, innovativ fəaliyyətin intensivliyinə, davamlı ("yaşıl") inkişaf yanaşmalarına, ağıllı idarəetmə sistemlərinə və ictimai inklüzivliyə - uyğunlaşma səviyyəsini ifadə edən konseptual çərçivə kimi çıxış edir. YNİİ, iqtisadiyyatı üç inteqrasiya olunmuş səviyyədə təhlil edən **"Konsentrik İnkişaf Modeli"nə** əsaslanır (Şəkil 1).

Yeni nəsil iqtisadiyyat çoxölçülü məzmun daşıyır və aşağıdakı baza xüsusiyyətlərlə səciyyələnir:

- sürətli rəqəmsal-texnoloji inkişaf və iqtisadi fəaliyyətin rəqəmsal platformalar üzərində yenidən təşkil olunması;
- bilik və innovasiya əsaslı dəyər yaradılması, ETTKİ və startap ekosistemlərinin artan rolu;
- iqtisadi artımın ekoloji baxımdan davamlılığı, resurslardan səmərəli istifadə və aşağı karbonlu inkişaf;
- sosial və regional baxımdan "heç kimin kənarda qalmadığı" inklüziv inkişaf modeli və imkan bərabərliyi.




*Şəkil 1. Yeni nəsil iqtisadiyyatın çoxsəviyyəli konseptual modeli*




*Şəkil 2. Yeni nəsil iqtisadiyyatın komponentləri*

Bu modeldə iqtisadi dəyərin formalaşmasında maddi kapitaldan daha çox insan kapitalı, bilik və innovasiya potensialı, rəqəmsal ekosistemlər, kreativ sənayelər və yaşıl texnologiyalar həlledici rol oynayır. Yeni nəsil iqtisadiyyat, mahiyyət etibarilə, bilik iqtisadiyyatı, rəqəmsal iqtisadiyyat, innovasiyayönümlü inkişaf, kreativ və platforma iqtisadiyyatı, eləcə də yaşıl və dairəvi iqtisadiyyatın əsas elementlərini özündə birləşdirən inteqrasiya olunmuş inkişaf paradigmasıdır.

## 1.2. Ənənəvi iqtisadiyyatdan fərqləndirici cəhətlər

Ənənəvi iqtisadi model, əsasən, təsərrüfat fəaliyyətinin kəmiyyət tərəflərini ÜDM-in həcmi və artım tempi, investisiya səviyyəsi, ticarət balansı və s. ön plana çəkir. Bu göstəricilər iqtisadi dinamikanın əsas konturlarını izləməyə imkan versə də, iqtisadiyyatın struktur keyfiyyətini, texnoloji yenilənmə səviyyəsini, insan kapitalının rolunu və institusional mühitin təsirini tam əks etdirmir.

Yeni nəsil iqtisadiyyat isə keyfiyyət meyarlarını mərkəzə çəkir. Texnoloji hazırlıq, innovasiya potensialı, ekoloji dayanıqlılıq, idarəetmənin səmərəliliyi və sosial əhatəlilik (inklüzivlik) bu modelin ayrılmaz tərkib hissələridir. Bu parametrlər klassik makroiqtisadi göstəricilər çərçivəsində yalnız dolayı şəkildə görünür, lakin XXI əsrin iqtisadi rəqabət mühitində məhz bu amillər ölkələrin real üstünlüklərini müəyyən edir.

Məhz bu səbəbdən Yeni Nəsil İqtisadiyyat İndeksi (YNİİ) iqtisadi inkişafın müasir ölçülərini vahid çərçivədə izləmək məqsədi daşıyan kompozit göstərici kimi formalaşdırılmışdır. İndeks ənənəvi ölçmələri tamamlayaraq daha geniş spektrli inkişaf indikatorlarını - texnoloji hazırlıq səviyyəsini, insan kapitalını, innovasiya ekosistemini, infrastrukturun keyfiyyətini, sosial inklüzivliyi və idarəetmə institutlarının səmərəliliyini nəzərə alır. Beləliklə, iqtisadiyyatın rəqabətqabiliyyətini və uzunmüddətli rifahını qiymətləndirərkən təkcə makro-iqtisadi artım templəri deyil, həm də:

- cəmiyyətin bilik və texnologiyalara yiyələnmə səviyyəsi;
- innovasiya və biznes mühitinin keyfiyyəti;
- rəqəmsal və sosial infrastrukturun inkişaf dərəcəsi;
- əhali qrupları arasında imkan bərabərliyi və sosial inklüzivlik kimi meyarlar nəzərə alınır.

Bu çoxşaxəli yanaşma sayəsində YNİİ ölkələrin ənənəvi iqtisadi göstəricilərlə görünməyən güclü və zəif tərəflərini üzə çıxarmağa imkan verir. Başqa sözlə, ənənəvi iqtisadiyyatla müqayisədə yeni nəsil iqtisadiyyat texnologiya və biliyə əsaslanan, rəqəmsal transformasiyaya adaptiv, ekoloji dayanıqlılığı təmin edən və sosial iştirakçılığı (inklüzivliyi) təşviq edən, həm kəmiyyət, həm də keyfiyyət nəticələrini əhatə edən ümumiləşdirilmiş iqtisadi model kimi çıxış edir.

Yeni nəsil iqtisadiyyat - ənənəvi iqtisadiyyatın sərhədlərini aşaraq, informasiya, bilik, texnologiya və innovasiyanın əsas istehsal amili olduğu, çevik və adaptiv iş modellərinin, rəqəmsal platformaların, yaşıl və inklüziv yanaşmaların üstünlük təşkil etdiyi bir iqtisadi mühitdir. Bu iqtisadiyyatın əsas fərqləndirici xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

| | |
|---|---|
| | **Startap mədəniyyəti və innovasiya**<br>Yeni və yenilikçi biznes modellərinin formalaşması, startapların, innovasiya layihələrinin və risk kapitalının fəal dəstəklənməsi. |
| | **Rəqəmsal transformasiya**<br>İKT, süni intellekt, blokçeyn və digər qabaqcıl texnologiyaların istehsal, xidmət və idarəetmə proseslərinə inteqrasiyası; rəqəmsal platformalar üzərindən dəyər zəncirlərinin yenidən qurulması |
| | **Çeviklik və mobillik**<br>Əmək bazarında çevik iş modellərinin, distant və hibrid iş formatlarının yayılması; işçi–işəgötürən və işçi–müştəri münasibətlərinin transformasiyası, yeni peşə və bacarıq tələblərinin formalaşması. |
| | **Davamlılıq və sosial məsuliyyət**<br>Ətraf mühitin qorunması, resurslardan səmərəli istifadə, aşağı karbonlu istehsal, korporativ sosial məsuliyyət və sosial bərabərlik məsələlərinin iqtisadi qərarvermədə nəzərə alınması |
| | **Qlobal bazar və şəbəkələşmə**<br>Qlobal ticarət və investisiya axınlarında iştirak imkanlarının genişlənməsi, regional və beynəlxalq iqtisadi şəbəkələrə inteqrasiyanın dərinləşməsi, rəqəmsal platformalar vasitəsilə kiçik subyektlərin də qlobal bazarlara çıxış imkanlarının artması. |

Bu fərqləndirici cəhətlər növbəti bölmədə təqdim olunan Yeni Nəsil İqtisadiyyatın əsas komponentləri və təsnifatı üçün konseptual baza yaradır və YNİİ-nin strukturunda öz kəmiyyət ifadəsini tapır.

## 1.3. Yeni Nəsil İqtisadiyyatın əsas komponentləri və təsnifatı

Yeni nəsil iqtisadiyyatın kompleks mahiyyətini analitik şəkildə ölçmək üçün ilk növbədə onun əsas struktur elementlərinin - komponent və alt-komponentlərinin aydın şəkildə müəyyənləşdirilməsi zəruridir. Konseptual səviyyədə yeni nəsil iqtisadiyyat həm iqtisadi fəaliyyətin məzmununu (bilik, innovasiya, rəqəmsal texnologiyalar, kreativ dəyər), həm də bu fəaliyyətin üzərində formalaşdığı institusional və sosial-mühit amillərini (makroiqtisadi sabitlik, idarəetmə keyfiyyəti, sosial inklüzivlik, ekoloji dayanıqlılıq) özündə birləşdirir.

Bu Hesabatda yeni nəsil iqtisadiyyatın strukturu çoxsəviyyəli konseptual model əsasında qurulur. Daxili səviyyədə insan kapitalı, bilik və innovasiya nüvə funksiyasını yerinə yetirir. Orta səviyyədə rəqəmsal, platforma və kreativ iqtisadiyyat komponentləri bilik və innovasiyanın praktik dəyərə çevrilmə kanallarını formalaşdırır. Xarici səviyyədə isə makroiqtisadi sabitlik, institusional mühit, sosial inklüzivlik və yaşıl/dairəvi inkişaf elementləri yeni nəsil iqtisadiyyatın dayanıqlılığını təmin edən "əlverişli mühit" rolunu oynayır.

## Cədvəl 1. Yeni Nəsil İqtisadiyyatın əsas komponentləri

| Əsas Komponent | Əhatə dairəsi və əhəmiyyəti |
|---|---|
| **Bilik iqtisadiyyatı (innovativ və insan kapitalı)** | Ölkənin biliyə əsaslanan inkişaf potensialını və insan kapitalının səviyyəsini xarakterizə edir. Elmi tədqiqat və innovasiya fəallığı, təhsil və peşə-ixtisas göstəriciləri, bilik və bacarıqların əmək bazarında monetarizasiyası bu komponentin əsas elementləridir. Bilik iqtisadiyyatı komponenti ölkənin innovasiya əsasında inkişaf qabiliyyətini və bilik yönlü iqtisadiyyat modelinə keçid səviyyəsini ölçür. |
| **Rəqəmsal iqtisadiyyat (texnoloji hazırlıq)** | Ölkənin rəqəmsal infrastrukturunun inkişaf səviyyəsini və rəqəmsal texnologiyaların tətbiq dərəcəsini əhatə edir. Genişzolaqlı internetə çıxış, mobil rabitə şəbəkələrinin keyfiyyəti, əhalinin internetdən istifadəsi, e-hökumət və elektron xidmətlərin inkişaf səviyyəsi kimi göstəricilərdən istifadə olunur. Bu komponent ölkənin rəqəmsal iqtisadiyyata hazırlıq səviyyəsini və rəqəmsal transformasiya dərəcəsini qiymətləndirir. |
| **Kreativ iqtisadiyyat** | İqtisadiyyatın mədəni və yaradıcı sektorlarının inkişaf səviyyəsini əks etdirir. Kreativ sənayelərin (film, musiqi, dizayn, media, vizual incəsənət və s.) ÜDM-dəki payı, kreativ məhsul və xidmətlərin ixracı, həmçinin bu sektorlarda məşğulluğun həcmi bu komponentin əsas göstəricilərini təşkil edir. Kreativ iqtisadiyyat ölkənin mədəni və innovativ dəyər yaratma potensialını nümayiş etdirir. |
| **Platforma və paylaşma iqtisadiyyatı** | Rəqəmsal platformalar əsasında formalaşan yeni iqtisadi fəaliyyət növlərinin miqyasını əhatə edir. Onlayn əmək platformalarında (freelance/gig iqtisadiyyatı) çalışanların payı, ride-sharing və ev paylaşma xidmətlərinin istifadə səviyyəsi, platforma iqtisadiyyatının ÜDM-dəki xüsusi çəkisi əsas göstəricilərdir. Bu komponent ölkənin platforma əsaslı, çevik və şəbəkələşmiş iqtisadi modellərə inteqrasiya dərəcəsini qiymətləndirir. |
| **Yaşıl və dairəvi iqtisadiyyat (dayanıqlı inkişaf)** | Ölkənin dayanıqlı inkişaf və “yaşıl” iqtisadi keçid istiqamətində irəliləyişini xarakterizə edir. İqlim dəyişikliklərinə adaptasiya, bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ətraf mühitin keyfiyyəti və resursların təkrar istifadəsi (dairəvi iqtisadiyyat) bu komponentin əsas tərkib hissələridir. Yaşıl və dairəvi iqtisadiyyat ekoloji sabitliyi və resurslardan uzunmüddətli səmərəli istifadəni qiymətləndirməyə imkan verir. |
| **Mavi iqtisadiyyat (əgər tətbiqdirsə)** | Dəniz və okean resurslarının dayanıqlı istifadəsi ilə bağlı iqtisadi fəaliyyətlərin həcmini əhatə edir. Balıqçılıq, dəniz nəqliyyatı, dəniz turizmi, offşor enerji və digər dəniz əsaslı fəaliyyətlər bu komponentə daxil edilə bilər. Mavi iqtisadiyyat, sahilyanı və dəniz resurslarına malik ölkələr üçün yeni nəsil iqtisadiyyatın xüsusi istiqamətlərindən birini təşkil edir. |

***Qeyd.*** *Bilik iqtisadiyyatı komponenti özündə həm innovasiya sisteminin göstəricilərini, həm də insan kapitalına dair (təhsil, ixtisaslaşma və s.) göstəriciləri birləşdirir. Sosial inklüzivlik (gender bərabərliyi, gəlir bölgüsü və s.) və institusional idarəetmə kimi amillər yeni nəsil iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb etsə də, YNİİ-də ayrıca komponent kimi deyil, dolayısı ilə yuxarıda qeyd olunan komponentlərin tərkibində nəzərə alınır. Məsələn, insan kapitalı və sosial inklüzivlik göstəriciləri bilik iqtisadiyyatı komponentinə, rəqəmsal hökumət və şəffaflıq göstəriciləri isə rəqəmsal və innovativ inkişaf mühitinə təsir edən amillər kimi qiymətləndirilir.*

Bunlarla yanaşı, YNİİ strukturunda iqtisadi inkişafın ümumi kontekstini nəzərə alan əlavə altindekslər də yer alır. Xüsusilə demoqrafik struktur (əhalinin yaş quruluşu və demoqrafik yüklülük göstəriciləri) və makroiqtisadi dayanıqlılıq (əsas makro-sabitlik indikatorları) kimi ölçülər indeksdə əksini tapır. Bu altindekslər birbaşa "yeni nəsil" iqtisadiyyatın komponentləri olmasa da, ölkənin yeni iqtisadiyyata keçid imkanlarını şərtləndirən baza amillər kimi mühüm rol oynayır. Məsələn, gənc və əmək qabiliyyətli əhalinin yüksək payı "demoqrafik dividend" yaradaraq innovativ iqtisadi artım üçün əlavə imkanlar formalaşdıra bilər. Makroiqtisadi sabitlik isə digər bütün komponentlər üzrə əldə olunan irəliləyişlərin davamlılığını təmin edən zəruri əsas hesab olunur.

Bu komponentlər həm yeni nəsil iqtisadiyyatın məzmun bloklarını (bilik, innovasiya, rəqəmsallıq, kreativlik), həm də onun mühit bloklarını (infrastruktur, makro sabitlik, sosial inklüzivlik, insan kapitalının keyfiyyəti) əhatə edir. Bu baxımdan yeni nəsil iqtisadiyyatın təsnifatı funksional bloklar üzrə aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Bilik və insan kapitalı bloku: təhsil, səhiyyə, bacarıq və texnoloji hazırlıq, demoqrafik struktur;
- İnnovasiya və kreativlik bloku: innovasiya və kreativ iqtisadiyyat subindeksləri;
- Rəqəmsal və platforma bloku: rəqəmsal infrastrukturla sıx bağlı olan bacarıq və texnoloji hazırlıq, platforma və paylaşma iqtisadiyyatı, infrastruktur;
- Makro-mühit və sosial dayanıqlılıq bloku: iqtisadi performans (makro sabitlik) və sosial inklüzivlik və bərabərlik komponentləri, həmçinin yaşıl və dairəvi inkişafla əlaqəli göstəricilər (metodologiya fəsilində ayrıca qeyd olunur).

**1.Texnoloji komponentlər üzrə təsnifat:**

- Rəqəmsal iqtisadiyyat: Süni intellekt, böyük verilənlər, blokçeyn, əşyaların interneti (IoT) kimi rəqəmsal texnologiyalara əsaslanan iqtisadiyyat.
- Bilik əsaslı iqtisadiyyat: Biliklərin və innovasiyaların əsas dəyər yaradan amil olduğu iqtisadiyyat növü.
- Platforma iqtisadiyyatı: Platformalar vasitəsilə xidmətlərin və məhsulların mübadiləsi (Uber, Airbnb və s.) üzərində qurulmuş iqtisadiyyat.

**2. İnnovativlik səviyyəsi üzrə təsnifat:**

- İnnovasiya yönümlü iqtisadiyyat: Texnoloji yeniliklər, startap ekosistemi, vençur kapitalı və R&D fəaliyyətlərinin yüksək olduğu iqtisadi mühit.
- Keçid iqtisadiyyatı: Ənənəvi iqtisadi modeldən innovativ, rəqəmsal texnologiyaların geniş tətbiqinə keçid mərhələsində olan iqtisadiyyat.

**3. Dayanıqlılıq və ekoloji komponent üzrə təsnifat:**

- Yaşıl iqtisadiyyat: Ətraf mühitə minimal təsir göstərən, resursların davamlı istifadəsini təmin edən iqtisadiyyat.
- Dairəvi iqtisadiyyat: Məhsul və xidmətlərin həyat dövrünü maksimum uzadan, təkrar istifadə və təkrar emal proseslərinə əsaslanan iqtisadi sistem.

**4. Struktur dəyişiklikləri üzrə təsnifat:**

- Post-sənaye iqtisadiyyatı: Xidmət sektoru və bilik əsaslı sahələrin üstünlük təşkil etdiyi iqtisadiyyat.
- Ağıllı iqtisadiyyat (smart economy): Rəqəmsal infrastruktur, smart texnologiyalar və ağıllı idarəetmə ilə xarakterizə olunan iqtisadiyyat növü.

**5. İdarəetmə modellərinə görə təsnifat:**

- Elektron hökumət əsaslı iqtisadiyyat: Dövlət xidmətlərinin elektron platformalarda təqdim olunması, rəqəmsal idarəetmə.
- Əməkdaşlıq iqtisadiyyatı (collaborative economy): Paylaşım və əməkdaşlıq prinsipləri üzərində qurulmuş iqtisadi fəaliyyətlər.

**6. İqtisadi fəaliyyət sahələri üzrə təsnifat:**

- Kreativ iqtisadiyyat: Mədəniyyət, dizayn, media, incəsənət kimi yaradıcı sahələrin iqtisadi inkişafın aparıcı qüvvəsi olduğu iqtisadiyyat.
- Gig iqtisadiyyatı: Qısamüddətli, sərbəst və ya frilans işlərin geniş yayıldığı iqtisadi mühit.

*Şəkil 3: Yeni Nəsil İqtisadiyyatın Təsnifatı*

## 1.4. Yeni Nəsil iqtisadiyyat İndeksinin məqsədi, tətbiq sahələri və hədəf auditoriyası

Yeni Nəsil İqtisadiyyat İndeksinin (YNİİ) formalaşdırılmasının başlıca məqsədi ölkələrin "yeni nəsil iqtisadiyyat" meyarlarına hazırlıq və uyğunlaşma səviyyəsini beynəlxalq standartlara uyğun, müqayisə oluna bilən və ölçülə bilən formada qiymətləndirməkdir. İndeks təkcə klassik makroiqtisadi göstəriciləri deyil, həm də insan kapitalı, innovasiya, rəqəmsal transformasiya, infrastruktur, sosial inklüzivlik və idarəetmə keyfiyyəti kimi komponentləri nəzərə alaraq iqtisadi inkişafın keyfiyyət ölçülərini ön plana çıxarır.

## 1.5. Tətbiq sahələri

**Ölkələrarası müqayisə üçün indeksin istifadəsi**

YNİİ-nin əsas funksiyalarından biri ölkələrin yeni nəsil iqtisadiyyatın tələblərinə uyğun inkişaf səviyyəsini beynəlxalq müstəvidə müqayisə etməyə imkan verməsidir. İndeksin metodologiyası qlobal məlumat bazalarına (Dünya Bankı, BMT, OECD, Dünya İqtisadi Forumu və s.) və beynəlxalq sorğulara əsaslandığı üçün müxtəlif ölkələrin nəticələrini adekvat və obyektiv şəkildə müqayisə etmək mümkün olur.

Bu indeks vasitəsilə ölkələr qlobal rəqabətdə öz mövqelərini görə, ənənəvi göstəricilərlə aşkar olunmayan üstün və zəif cəhətlərini müəyyən edə bilirlər. Məsələn, YNİİ göstəriciləri əsasında yüksək ÜDM səviyyəsinə malik bir ölkənin rəqəmsal infrastruktur, insan kapitalı və ya təhsil keyfiyyəti sahəsində geri qaldığı üzə çıxa bilər. Bu baxımdan YNİİ ölkələrarası reytinqlər, qlobal inkişaf hesabatları və müqayisəli empirik tədqiqatlar üçün vahid, prinsipial və metodoloji cəhətdən əsaslandırılmış baza kimi çıxış edir.

**Ölkədaxili strategiyalar və siyasət üçün tətbiq sahələri**

YNİİ-nin nəticələri yalnız beynəlxalq müqayisələr üçün deyil, həm də ölkədaxili siyasət və inkişaf strategiyalarının formalaşdırılması üçün praktik alət kimi istifadə oluna bilər. Hökumətlər indeksin subindeksləri və tərkib göstəriciləri əsasında iqtisadi və sosial islahatlarda prioritet sahələri müəyyənləşdirə bilərlər. Məsələn, indeks nəticələri göstərirsə ki, hər hansı ölkə rəqəmsal infrastruktur və ya innovasiya ekosistemi üzrə geri qalır, bu sahələrin inkişafına əlavə investisiyaların cəlb edilməsi, normativ-hüquqi mühitin təkmilləşdirilməsi və hədəfli dövlət proqramlarının hazırlanması gündəmə gətirilə bilər.

Eyni zamanda indeks göstəriciləri insan kapitalının hazırlıq səviyyəsi, innovasiya mühitinin rəqabətqabiliyyəti, sosial inklüzivlik dərəcəsi və idarəetmə keyfiyyəti barədə siqnal funksiyasını yerinə yetirir və özəl sektorun investisiya qərarlarına da təsir göstərə bilər. Akademik tədqiqatlar müstəvisində isə YNİİ konseptual çərçivə və ölçmə aləti kimi çıxış edərək, ölkələrin yeni nəsil iqtisadiyyata keçid prosesini qiymətləndirmək üçün göstərici dəsti təqdim edir.

**Hədəf auditoriyası**

YNİİ-nin dizaynı elə qurulmuşdur ki, indeksin nəticələri müxtəlif maraqlı tərəflər

üçün istifadə oluna bilsin. Nəticə etibarilə, YNİİ yalnız statistik göstəricilər toplusu deyil, həm də dövlət qurumları, biznes və elmi tədqiqat icması üçün prioritet istiqamətlərin müəyyən edilməsi, mövcud boşluqların aşkarlanması və tarazlı, uzunmüddətli inkişafı sürətləndirən qərarların qəbulunda dəyərli analitik alət kimi nəzərdə tutulur. Bu baxımdan YNİİ, yeni nəsil iqtisadiyyatla bağlı konseptual müzakirələri konkret göstəricilər və müqayisə oluna bilən nəticələr əsasında praktiki müstəviyə keçirən vasitə rolunu oynayır.

**Dövlət qurumları və siyasətçilər:**

- iqtisadi, rəqəmsal, təhsil, əmək, sosial və ekoloji siyasətlərin planlaşdırılması, prioritetlərin seçilməsi və islahatların hədəflənməsi üçün analitik baza kimi

**Beynəlxalq və regional təşkilatlar (İƏT, TDT, CAREC və s.):**

- ölkələrarası müqayisəli təhlillər, regional inteqrasiya təşəbbüsləri və texniki yardım proqramlarının dizaynı üçün

**Elmi-tədqiqat institutları və universitetlər:**

- yeni nəsil iqtisadiyyat, rəqəmsal transformasiya, innovasiya, inklüziv inkişaf və s. mövzularda empirik tədqiqatlar aparmaq üçün indikator bazası və metodoloji çərçivə kimi

**Biznes subyektləri və investorlar:**

- infrastruktur, insan kapitalı, rəqəmsal mühit və institusional keyfiyyət üzrə nəticələr əsasında yeni nəsil iqtisadi fəaliyyət üçün əlverişli bazarların identifikasiyası məqsədilə

**Vətəndaş cəmiyyəti və analitik mərkəzlər:**

- sosial inklüzivlik, bərabərlik və institusional şəffaflıq sahələrində monitorinq, advocacy və ictimai müzakirələrin aparılması üçün

# II Hissə: METODOLOGİYA

## 2.1. İndeksin quruluşu və komponentləri

YNİİ çoxkomponentli kompozit indeks kimi qurulmuşdur və ölkələrin "yeni nəsil iqtisadiyyat" meyarlarına hazırlıq səviyyəsini 10 əsas subindeks üzrə ölçür. Bu subindekslər 1-ci fəsildə təqdim olunan konseptual çərçivəyə uyğun olaraq seçilmiş və yeni nəsil iqtisadiyyatın həm məzmun, həm də mühit tərəflərini əhatə edəcək şəkildə sistemləşdirilmişdir.

Metodoloji baxımdan YNİİ-nin quruluşu iki səviyyədən ibarətdir:

- I səviyyə – subindeks səviyyəsi: Hər bir subindeks müəyyən tematik sahəni (məsələn, innovasiya, təhsil, sosial inklüzivlik və s.) əhatə edən normalizə olunmuş göstəricilər qrupunun aqreqasiyası əsasında hesablanır.
- II səviyyə – yekun indeks səviyyəsi: Subindekslər əvvəlcədən müəyyən edilmiş çəki strukturu əsasında birləşdirilərək yekun YNİİ balını formalaşdırır.

Bu fəsildə əvvəlcə subindekslərin siyahısı və onların funksional qruplaşdırılması təqdim olunur, daha sonra isə YNİİ-nin input və output blokları üzrə struktur məntiqi izah edilir.

### 2.1.1. Subindekslərin siyahısı və funksional bloklar

YNİİ aşağıdakı 10 subindekslərdən ibarətdir:

| Subindeks | Göstərici |
| --- | --- |
| **1. Demoqrafik Struktur** | |
| 1.1.Yaşlı əhali | İşçi yaşlı əhalinin payı (%) |
| 1.2. Yaş payı | Yaş asılılıq əmsalı |
| 1.3 Median yaş | Median yaş (il) |
| **2. Bacarıq və texnoloji hazırlıq** | |
| 2.1 Rəqəmsal Bacarıqlar | Rəqəmsal bacarıq indeksi (0–100) |
| 2.2. İKT Hazırlığı | İnternet istifadəçilərinin payı (%) |
| 2.3. Mobil abunəçilik | Mobil genişzolaqlı abunəlik (100 nəfərə) |
| 2.4 Ali təhsil | Ali təhsilli yetkin əhali (%) |
| **3. İnnovasiya** | |
| 3.1.Elmi xərclər | ETTKİ xərcləri (% ÜDM) |
| 3.2. Patent sayı | Patent müraciətləri (milyon nəfərə) |
| 3.3. Yüksək Texnoloji məhsul ixraçı | Yüksək texnoloji məhsul ixracı (%) |
| 3.4 İnnovasiya ekosistemi (GII score) | İnnovasiya ekosistemi indeksi |
| **4. Kreativ iqtisadiyyat** | |
| 4.1 Yaradıcı xidmətlər | Kreativ xidmət ixracının payı (%) |
| 4.2 Yaradıcı məhsullar | Kreativ mal ixracının payı (%) |
| 4.3 Kreativ məşğulluq | Kreativ sektor məşğulluğunun payı (%) |
| **5. Platforma və paylaşma iqtisadiyyatı** | |
| 5.1 Rəqəmsal platformalar | Platforma xidmətlərinin ÜDM-də payı (%) |
| 5.2 Məşğulluq | Platforma işçilərinin payı (% məşğulluqda) |
| 5.3 Paylaşım platforması | Paylaşma platformalarından istifadə (% əhali) |
| **6. İnfrastruktur** | |
| 6.1 Enerji təchizatı | Əhalinin elektrik enerjisinə çıxışı (%) |
| 6.2 Yol infrastrukturu | Yol keyfiyyəti indeksi (bal) |
| 6.3 Logistika imkanları | Logistika Performans İndeksi (LPI, bal) |
| 6.4 Rəqəmsal infrastruktur | Sabit genişzolaqlı internet (100 nəfərə) |
| 6.5 Kommunal infrastrukturlar | Əhalinin təmiz su və sanitariyaya çıxışı (%) |
| **7. İqtisadi performans** | |
| 7.1 Adambaşına ÜDM | Adambaşına ÜDM (PPP, $) |
| 7.2 ÜDM artımı | ÜDM-in real artım tempi (%) |
| 7.3 İnfilyasiya | İllik inflyasiya (%) |
| 7.4 işsizlik | İşsizlik dərəcəsi (%) |
| 7.5 Dövlət borçu ÜDM payı | Dövlət borcunun ÜDM-də payı (%) |
| **8. Təhsil** | |
| 8.1 Savadlılıq | Savadlılıq dərəcəsi (%) |
| 8.2 Orta təhsildə iştirak | Orta təhsildə iştirak (%) |

| | |
|---|---|
| 8.3 Ali təhsildə iştirak | Ali təhsildə iştirak (%) |
| 8.4 PISA nəticələri | PISA nəticələri (orta bal) |
| 8.5 Təhsil xərcləri | Təhsil xərcləri (% ÜDM) |
| 8.6 STEM məzunlarının payı | STEM məzunlarının payı (% ali məzunlar) |
| **9. Səhiyyə** | |
| 9.1 Doğulanda gözlənilən ömür | Doğulanda gözlənilən ömür (il) |
| 9.2 Uşaq ölümü | Uşaq ölümü göstəricisi (‰) |
| 9.3 Sağlam ömür | Sağlam ömür müddəti (HALE, il) |
| 9.4 Səhiyyə xərcləri | Səhiyyə xərcləri (% ÜDM) |
| 9.5 Universal səhiyyə əhatə indeksi (0–100) | Universal səhiyyə əhatə indeksi (0–100) |
| **10. Sosial inklüzivlik** | |
| 10.1 Gender bərabərliyi | Gender bərabərliyi indeksi (GGI, WEF) |
| 10.2 İqtisadi iştirak | Qadınların işçi qüvvəsində iştirakı (%) |
| 10.3 Gəlir bərabərsizliyi | Gini koeffisienti (0–100) |
| 10.4 Yaşayış səviyyəsi | Yoxsulluq həddi altında yaşayanlar (%) |

***Qeyd**: Subindekslərin hər biri üçün istifadə olunan konkret göstəricilər və onların mənbələri “Əlavə B. Göstəricilərin siyahısı və mənbələr” bölməsində cədvəl şəklində təqdim olunur.*

### 2.1.2. YNİİ-nin input və output blokları

YNİİ-nin analitk interpretasiyasını dərinləşdirmək üçün subindekslər əlavə olaraq iki əsas qrupa – input (resurs və imkanlar) və output (nəticələr və iqtisadi çıxışlar) bloklarına bölünür.




*Şəkil 4. Giriş və çıxış yanaşması*

**Giriş (Input) bloku (resurslar və imkan yaradan amillər).**

Input komponentləri ölkənin yeni nəsil iqtisadiyyata keçidi üçün mövcud potensialı, institusional və sosial-iqtisadi şəraiti xarakterizə edir. Bu blok insan kapitalının keyfiyyətini, əhalinin yaş strukturunu, sosial mühiti, makroiqtisadi sabitliyi və fiziki-rəqəmsal infrastrukturun səviyyəsini əks etdirərək "hansı resurslar və imkanlar mövcuddur?" sualına cavab verir.

**Çıxış (Output) bloku (nəticələr və yeni nəsil iqtisadi fəaliyyət formaları).**

Output komponentləri input resurslarının reallaşması nəticəsində formalaşan yeni iqtisadi dəyər, fəaliyyət formaları və struktur dəyişikliklərini əks etdirir. Bu blok bilik və texnologiya əsasında yeni dəyərin yaradılmasını, yaradıcı sənayelərin inkişafını və rəqəmsal platforma modellərinin yayılma dərəcəsini ölçür və "mövcud resurslar hansı yeni iqtisadi nəticələr yaradır?" sualına cavab verir.

Beləliklə, YNİİ-nin həm funksional bloklar (bilik və insan kapitalı, innovasiya və kreativlik, rəqəmsal və platforma, makro-mühit və sosial dayanıqlılıq), həm də input-output kəsiyi üzrə strukturlaşdırılması indeksin həm konseptual, həm də metodoloji baxımdan daha dərindən təhlilinə imkan verir.

Analitik baxımdan YNİİ-nin input və output bloklara bölünməsi iki mühüm üstünlük verir:

(i) ölkələrin potensialı (input) ilə faktiki nəticələri (output) arasındakı uyğunsuzluqları aşkar etməyə imkan verir (məsələn, yüksək input, lakin nisbətən zəif output və ya əksinə);

(ii) siyasətçilərə hansı sahələrdə daha çox "girişin gücləndirilməsi", hansı sahələrdə isə "nəticə yönümlü" dəstəyin vacib olduğunu göstərir.

## 2.2. Göstəricilərin seçilməsi və məlumat toplanması

YNİİ-yə daxil ediləcək göstəricilərin seçimi beynəlxalq metodoloji təcrübəyə uyğun olaraq aparılmaqla bir sıra əsas meyarlara söykənir. İndeksin məqsəd və məzmunu nəzərə alınmaqla göstəricilər aşağıdakı xüsusiyyətlərə uyğun seçilmişdir:

**Nəzəri əsaslandırma**. Hər bir göstərici yeni nəsil iqtisadiyyatın müvafiq aspektini əks etdirir və elmi ədəbiyyatda qəbul olunmuş konseptual çərçivələrə (bilik iqtisadiyyatı, rəqəmsal iqtisadiyyat, davamlı inkişaf, innovasiya sistemi və s.) uyğundur.

**Məlumat mövcudluğu.** Seçilən göstəricilər üzrə etibarlı, müntəzəm yenilənən və

beynəlxalq müqayisə üçün əlverişli məlumatlar mövcud olmalıdır. Məlumatlar əsasən Dünya Bankı, BMT, OECD, Dünya İqtisadi Forumu və digər nüfuzlu beynəlxalq təşkilatların açıq statistik bazalarından əldə edilir.

**Beynəlxalq müqayisəlilik**. Göstəricilər müxtəlif ölkələr üçün eyni metodologiya əsasında hesablandığına və eyni ölçü vahidində təqdim olunduğuna görə ölkələrarası müqayisəni mümkün edir. Bu, YNİİ nəticələrinin qlobal və regional kəsimdə adekvat təhlilinə şərait yaradır.

**Korrelyasiyanın nəzərə alınması**. Bir-biri ilə çox yüksək korrelyasiyada olan (məsələn, korrelyasiya əmsalı > 0,9) göstəricilərdən yalnız biri indekstə daxil edilir. Bu yanaşma eyni təsirin indeksdə iki dəfə "sayılmasının" qarşısını almağa və komponentlər üzrə məlumatların informasiya tutumunu artırmağa xidmət edir.

Bu meyarlar əsasında formalaşdırılan göstərici dəsti həm nəzəri cəhətdən əsaslandırılmış, həm də praktiki baxımdan ölçülə bilən və müqayisə oluna bilən Yeni Nəsil İqtisadiyyat İndeksinin etibarlı informasiya bazasını təmin edir.

## 2.3. Əhatə dairəsi və məlumat mənbələri

### 2.3.1. Əhatə Dairəsi

YNİİ-nin əhatə dairəsi qlobal səviyyədə mümkün qədər çox ölkəni – inkişaf etmiş, inkişaf etməkdə olan və yeni yaranan bazar iqtisadiyyatlarını əhatə etməyə istiqamətlənmişdir. İlk olaraq YNİİ 2025-ci il üçün 15 ölkəni əhatə edir. Bu ölkələr üç əsas regional bloka aiddir:



**Cədvəl 2. Ölkələrin təşkilatlar üzrə üzvlük statusu (TDT, İƏT, CAREC)**

| Ölkə | Regional İqtisadi və Siyasi Bloklar |
|---|---|
| Azərbaycan | TDT/CAREC/İƏT |
| Çin | CAREC/İƏT |
| Əfqanıstan | CAREC/İƏT |
| Gürcüstan | CAREC/İƏT |
| İran | İƏT |
| Macarıstan | TDT |
| Monqolustan | CAREC |
| Özbəkistan | TDT/CAREC/İƏT |
| Pakistan | İƏT |
| Qazaxıstan | TDT/CAREC/İƏT |
| Qırğızıstan | TDT/CAREC/İƏT |
| Şimali Kipr | TDT/İƏT |
| Tacikistan | CAREC/İƏT |
| Türkiyə | TDT/İƏT |
| Türkmənistan | TDT/CAREC/İƏT |

### 2.3.2 Məlumat mənbələri

İndeksin hesablanmasında istifadə olunan 107 göstərici üzrə məlumatlar etibarlı beynəlxalq və milli mənbələrdən toplanmışdır. Əsas məlumat mənbələrinə Dünya Bankı (WB), Beynəlxalq Valyuta Fondu (IMF), BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD), Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU), Dünya İqtisadi Forumu (WEF), UNESCO, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Ümumdünya Səhiyyə Təşkilatı (WHO) kimi qurumların 2022-2025-ci illəri əhatə edən hesabatları daxildir.

Mümkün olduqda göstəricilər üçün məlumatlar eyni il və ya yaxın illər üçün seçilmiş, ölkələrarası müqayisənin adekvat aparılması təmin edilmişdir. Ayrı-ayrı ölkələr üzrə məlumat boşluqları yarandığı hallarda isə bu məhdudiyyət hesabatın müvafiq hissələrində ayrıca qeyd edilmişdir.

Subindekslərin hər biri üçün istifadə olunan konkret göstəricilər və onların mənbələri "Əlavə B. Göstəricilərin siyahısı və mənbələr" bölməsində cədvəl şəklində təqdim olunur.

## 2.4. Hesablama metodologiyası

YNİİ hesablanması bir neçə ardıcıl mərhələdən ibarətdir:



- məlumatların seçilməsi və strukturlaşdırılması,
- göstəricilərin normallaşdırılması,
- neqativ təsirli göstəricilərin (cost indicators) tərsinə çevrilməsi,
- subindekslərin hesablanması,
- yekun indeksin çəkili aqreqasiyası.

Hesablama metodologiyası "Əlavə A. Texniki metodologiya" bölməsində geniş təqdim edilir.

## 2.5. İndeksin komponentləri və çəki strukturu

YNİİ yekun dəyəri subindekslərin sadə toplanması ilə deyil, “yeni nəsil iqtisadiyyat” üçün onların nəzəri və praktiki əhəmiyyətini əks etdirən çəki strukturu əsasında formalaşdırılır.

YNİİ 10 əsas subindeks üzərində formalaşdırılmışdır. Çəkilər ekspert rəyi və akademik ədəbiyyata əsasən müəyyən edilmişdir.

**Cədvəl 3. YNİİ-nin subindekslər üzrə çəki strukturu**

| Subindeks (Pillar) | Çəki (%) | Blok |
|---|---|---|
| İnnovasiya | 15% | Output |
| Təhsil | 12% | Input |
| Bacarıq və texnoloji hazırlıq | 12% | Input |
| İnfrastruktur | 10% | Input |
| İqtisadi performans | 10% | Input |
| Sosial inklüzivlik | 10% | Input |
| Platforma iqtisadiyyatı | 9% | Output |
| Kreativ iqtisadiyyat | 8% | Output |
| Səhiyyə | 8% | Input |
| Demoqrafik struktur | 6% | Input |

## 2.6. Seçilmiş çəki strukturunun əsaslandırılması

YNİİ-də tətbiq olunan çəki strukturu təsadüfi seçilməmiş, həm nəzəri, həm də empirik əsaslandırmaya söykənmişdir. Bir tərəfdən, beynəlxalq indekslərin (bilik iqtisadiyyatı, rəqəmsal transformasiya, innovasiya, insan inkişafı və s.) metodoloji yanaşmaları nəzərdən keçirilmiş, digər tərəfdən isə yeni nəsil iqtisadiyyat konsepsiyasının məzmunu əsasında komponentlərin nisbi əhəmiyyət dərəcəsi qiymətləndirilmişdir.

Yeni nəsil iqtisadiyyatın “nüvə drayverləri” - innovasiya (15%), təhsil (12%) və bacarıq-texnoloji hazırlıq (12%) üçün daha yüksək çəkilərin verilməsi, yeni nəsil iqtisadiyyatın bilik və texnologiya əsasında formalaşan model olmasına əsaslanır. Bu komponentlər birgə şəkildə bilik yaradılması, bilik transferi və bilikdən istifadə qabiliyyətini müəyyən edir və həmçinin YNİİ ilə güclü müsbət korelyasiya nümayiş etdirir.

İnfrastruktur (10%), iqtisadi performans (10%) və sosial inkluzivlik (10%) üzrə çəkilər bu komponentlərin həm iqtisadi, həm də sosial mühitin keyfiyyətini formalaşdıran “baza dayaqları” olmasını əks etdirir. İnfrastruktur innovasiya və rəqəmsal transformasiyanın, makroiqtisadi sabitlik isə uzunmüddətli investisiya və islahatların zəruri şərtidir. Sosial inkluziv-

lik isə iqtisadi modelin cəmiyyət tərəfindən qəbul olunması və dayanıqlı rifahın təmin edilməsi üçün vacibdir.

Yeni nəsil iqtisadiyyatın "yeni dalğa" blokları - platforma və paylaşım iqtisadiyyatı (9%), kreativ iqtisadiyyat (8%) üçün müəyyən edilmiş çəki bu komponentin yeni iqtisadi fəaliyyət formalarının (gig economy, paylaşma modelləri, platforma əsaslı xidmətlər) genişlənməsində artan rolunu nəzərə alır. Bu sahə innovasiya, rəqəmsallaşma və məşğulluq strukturu ilə sıx bağlı olduğuna görə orta-yüksək əhəmiyyət kateqoriyasına daxil edilmişdir.

Səhiyyə (8%) komponentlərinə orta səviyyəli çəki verilməsi, onların həm bilavasitə iqtisadi təsirləri (yaradıcı sənayelərin ixrac və məşğulluq potensialı, sağlamlığın məhsuldarlığa təsiri), həm də dolayı təsirləri (brend dəyəri, sosial rifah, insan inkişafı) ilə bağlıdır. Təhsil və bacarıq subindeksləri ilə birgə səhiyyə yeni nəsil iqtisadiyyatın "insan yönümlü" ölçüsünü tamamlayır və buna uyğun çəkiyə malikdir.

Demoqrafik struktur (6%) isə daha çox şərtləndirici faktor qismində nəzərdən keçirilmişdir. Gənc və əmək qabiliyyətli əhalinin yüksək payı potensial üstünlük yaratsa da, bu üstünlüyün real "demoqrafik dividend"ə çevrilməsi təhsil, məşğulluq və sosial siyasətlərin keyfiyyətindən asılıdır. Bu səbəbdən demoqrafiya YNİİ-ni təyin edən mərkəzi drayverdən çox, digər komponentlərin işini gücləndirən və ya məhdudlaşdıran struktur fon kimi modelləşdirilmişdir.

Seçilmiş çəki strukturu balanslaşdırılmış kompromis variant kimi qiymətləndirilə bilər. Bu bir tərəfdən, innovasiya və insan kapitalı kimi komponentlərin aparıcı rolunu vurğulayır, digər tərəfdən isə infrastruktur, makro sabitlik və sosial inkluzivlik kimi baza amillərin əhəmiyyətini nəzərdən qaçırmır. Gələcək tədqiqatlarda çəki strukturunun həssaslıq analizi (məsələn, alternativ çəki ssenarilərinin sınaqdan keçirilməsi) aparılaraq indeksin sabitliyi və robustluğu əlavə olaraq qiymətləndirilə bilər.

## 2.7. Korrelyasiya analizinin rolu

YNİİ-nin metodologiyasında korelyasiya analizi iki əsas məqsəd daşıyır:

1. subindekslərin yekun indeksə təsir gücünü qiymətləndirmək;
2. göstərici və subindeks səviyyəsində mümkün multikolinearlıq və "iki dəfə sayılma" riskini minimuma endirmək.

İlkin mərhələdə subindekslərlə yekun YNİİ arasında Pearson korelyasiya əmsalı hesablanır. Bu əmsal hər bir subindeksin yekun indekslə statistik əlaqəsinin istiqamətini və intensivliyini (müsbət, mənfi, zəif, orta, güclü) göstərir və beləliklə, hansı komponentlərin yeni nəsil iqtisadiyyatın formalaşmasında daha dominant rol oynadığını müəyyən etməyə imkan verir. Yüksək müsbət korelyasiya (məsələn, $r > 0,8$) həmin subindeksin YNİİ-nin səviyyəsi ilə sıx bağlı olduğunu göstərir. Zəif və ya mənfi korelyasiya isə komponentin daha çox "şərtləndirici mühit" rolu oynadığını və ya digər amillərlə kompensasiya oluna bildiyini göstərir.

Bu Hesabatda korelyasiya əmsallarının hesablanması və texniki detalları metodoloji **Əlavə A** bölməsində təqdim olunur. Əlavədə Pearson korelyasiya düsturu, hesablama addımları, nümunəvi korelyasiya matrisi və nəticələrin statistik interpretasiyası ayrıca izah edilir. Hesabatın əsas mətnində isə korelyasiya analizi daha çox analitik şərh səviyyəsində istifadə olunur: hansı subindekslərin YNİİ üçün əsas

"drayver" olduğu, hansılarının isə daha çox dəstəkverici və ya şərtləndirici rol oynadığı sistemli şəkildə göstərilir.

## 2.8. Metodologiyanın yekun qiymətləndirilməsi

YNİİ metodologiyası elə qurulmuşdur ki, həm konseptual baxımdan əsaslandırılmış, həm də praktiki tətbiq üçün şəffaf və təkrarhesablana bilən olsun. İndeksin strukturu (10 subindeks və onların çəkiləri), göstəricilərin seçilməsi prinsipləri, normallaşdırma, çəki təyinetmə və aqreqasiya mexanizmləri açıq şəkildə təqdim edilir və istifadə olunan bütün məlumat mənbələri (Dünya Bankı, BMT, OECD, WEF, UNCTAD, ITU, WHO, milli statistika və s.) aydın şəkildə göstərilir. Bu, indeksin həm tədqiqatçılar, həm də siyasətçilər tərəfindən müstəqil yoxlanılmasına və alternativ ssenarilərlə yenidən hesablanmasına imkan verir.

Metodologiyanın əsas üstünlükləri aşağıdakılardır:

- konseptual çərçivə yeni nəsil iqtisadiyyatın əsas komponentləri ilə tam uyğunlaşdırılıb;
- göstəricilər beynəlxalq müqayisəlilik, məlumat etibarlılığı və nəzəri əsaslandırma prinsiplərinə uyğun seçilib;
- min-max normallaşdırma və çəkili aqreqasiya üsulu praktiki tətbiq üçün sadə, lakin analitik baxımdan kifayət qədər informativ çərçivə təqdim edir;
- korelyasiya analizi vasitəsilə subindekslərin YNİİ-yə təsir gücü və daxili qarşılıqlı əlaqələr sistemli şəkildə qiymətləndirilir.

Bununla yanaşı, metodologiyanın müəyyən məhdudiyyətləri də mövcuddur. Bir sıra göstəricilər üzrə məlumat boşluqları və ya illər üzrə uyğunsuzluqlar bəzi ölkələr üçün tam müqayisəliliyi məhdudlaşdıra bilər. Çəki strukturu, hərçənd nəzəri əsaslandırma və ekspert yanaşması əsasında seçilmişdir, müəyyən dərəcədə subyektiv xarakter daşıyır və gələcək tədqiqatlarda alternativ çəkilərlə həssaslıq analizinə ehtiyac duyula bilər. Normallaşdırma üçün seçilmiş min-max yanaşması isə ekstremal qiymətlərə həssasdır və gələcək versiyalarda Z-score və ya robust metodlarla müqayisəli tətbiq imkanları nəzərdən keçirilə bilər.

Gələcək təkmilləşdirmə istiqamətlərinə aşağıdakılar aid edilə bilər: indikator dəstinin genişləndirilməsi (xüsusilə platforma, kreativ və yaşıl iqtisadiyyat sahələrində), ölkə əhatəsinin artırılması, zaman sıraları üzrə dinamik YNİİ hesablamalarının aparılması, eləcə də faktor analizi və struktur modelləşdirmə (SEM) kimi üsullarla indeksin daxili konstrukt-validliyinin daha dərindən sınanması. Texniki formal düsturlar, addım-addım prosedur və bütün hesablamaların tam təsviri "Əlavə A. Texniki metodologiya" bölməsində yerləşdirilir və metodologiyanın tam olaraq təkrar istehsalına imkan verir.

## 2.9. YNİİ-nin bütün bölmələri üzrə ümumi mənzərə

Bu paraqrafda YNİİ strukturunu təşkil edən subindekslər üzrə ümumi mənzərə təqdim olunur. Hər bir subindeksin məzmunu, onun arxasında dayanan iqtisadi məntiq və yeni nəsil iqtisadiyyat modelində rolu izah edilir.

### 2.9.1. Demoqrafik struktur

Demoqrafik struktur subindeksi ölkələrin yaş quruluşunu, demoqrafik yüklülük səviyyəsini və əmək qabiliyyətli əhali

potensialını xarakterizə edir. Gənc və işçi yaşlı əhalinin payının yüksək olduğu ölkələrdə yeni nəsil iqtisadiyyat üçün potensial daha genişdir və uyğun təhsil və məşğulluq siyasəti tətbiq edildiyi halda bu üstünlük "demoqrafik dividend"ə çevrilə bilər. Lakin gənclərin adekvat bacarıqlarla və layiqli iş imkanları ilə təmin olunmaması bu dividendi reallaşdırmaq əvəzinə işsizlik, miqrasiya və sosial gərginlik risklərini artırır. Yaşlanma templərinin yüksək olduğu ölkələrdə isə insan kapitalının yenilənməsi, əmək məhsuldarlığının artırılması və sosial təminat sistemlərinin maliyyə dayanıqlığının qorunması əsas strateji çağırışlar kimi önə çıxır.

### 2.9.2. Bacarıq və texnoloji hazırlıq

Bacarıq və texnoloji hazırlıq subindeksi rəqəmsal savadlılıq, İKT bacarıqları, yeni texnologiyaların mənimsənilməsi səviyyəsi və əhalinin bilik əsaslı iqtisadiyyata adaptasiya qabiliyyətini əks etdirir. Bu sahə yeni nəsil iqtisadiyyatın "insani təməli" kimi çıxış edir. Yüksək bal toplayan ölkələrdə rəqəmsal transformasiya prosesləri daha sürətli və səmərəli həyata keçirilir, innovativ biznes modelləri və platforma əsaslı xidmətlər daha geniş yayılır. Aşağı gəlirli və struktur problemləri olan iqtisadiyyatlarda bu sahədə kəskin diskrepansiyalar müşahidə olunur. Xüsusilə regionlar və gənclər arasında rəqəmsal bacarıq fərqləri yeni nəsil iqtisadiyyata keçidi ləngidən əsas məhdudiyyətlərdən biri kimi çıxış edir.

### 2.9.3. İnnovasiya potensialı

İnnovasiya potensialı subindeksi elmi tədqiqat və təcrübə-konstruktor işlərinə (ETTKİ) çəkilən xərcləri, patent aktivliyini, startapların sayını və keyfiyyətini, həmçinin innovasiya infrastrukturunun inkişaf səviyyəsini özündə birləşdirir. Yüksək innovasiya potensialına malik ölkələr YNİİ üzrə adətən orta səviyyədən əhəmiyyətli dərəcədə yüksək nəticələr nümayiş etdirir və qlobal dəyər zəncirlərində daha əlverişli mövqelər tutur. Keçid iqtisadiyyatlarında innovasiya mühiti formalaşsa da, kapitalın əlçatanlığı, bazarın ölçüsü, idarəetmə qabiliyyəti və risk mədəniyyəti kimi amillər innovativ ekosistemin tam potensialla işləməsinə mane ola bilər. Bu səbəbdən innovasiya ekosisteminin institusional gücləndirilməsi yeni nəsil iqtisadiyyatın inkişafı üçün strateji prioritet hesab edilməlidir.

### 2.9.4. Kreativ (yaradıcı) iqtisadiyyat

Kreativ iqtisadiyyat subindeksi mədəni və yaradıcı sənayelərin – media, dizayn, oyun sənayesi, mədəni irs turizmi, vizual və tətbiqi incəsənət və s. iqtisadiyyatda rolunu qiymətləndirir. Bu sektorların inkişaf etdiyi ölkələrdə ixrac strukturunda qeyri-ənənəvi xidmətlərin və yaradıcı məhsulların payı artır, iqtisadiyyatın şaxələndirilməsi və rəqabətqabiliyyətliliyi güclənir. Kreativ sahə rəqəmsal platformalarla sinerji yaratdıqda ölkənin beynəlxalq imicini, "yumşaq gücünü" və milli brend dəyərini yüksəldir. Bu baxımdan kreativ iqtisadiyyat yeni nəsil iqtisadiyyatın həm iqtisadi, həm də mədəni dayaqlarından biri kimi çıxış edir.

### 2.9.5. Platforma və paylaşma iqtisadiyyatı

Platforma və paylaşma iqtisadiyyatı subindeksi onlayn ticarət, ride-sharing, freelancing, ev paylaşma və digər platforma əsaslı iş modellərinin miqyasını və iqtisadi çəkisini əks etdirir. Normativ-hüquqi baza, rəqabət mühiti və rəqəmsal infrastruktur uyğun olduğu halda, platforma və paylaşma iqtisadiyyatı çevik məşğulluq formalarının

genişlənməsinə, resurslardan daha səmərəli istifadəyə və əhalinin əlavə gəlir imkanlarının artmasına şərait yaradır. Bu subindeks üzrə yüksək nəticələr, adətən, YNİİ ilə güclü müsbət əlaqədə olur və yeni nəsil iqtisadiyyatın şəbəkələşmiş, rəqəmsal və elastik strukturunu təcəssüm etdirir.

### 2.9.6. İnfrastruktur

İnfrastruktur subindeksi həm rəqəmsal, həm də fiziki infrastruktur komponentlərini inteqrasiya olunmuş şəkildə qiymətləndirir. Rəqəmsal infrastruktur – internet sürəti, əhatə dairəsi, fiber-optik şəbəkələrin mövcudluğu ilə yanaşı, enerji təchizatı, yol şəbəkəsi və logistika kimi fiziki infrastruktur elementləri də nəzərə alınır. İnfrastrukturda ciddi çatışmazlıqlar mövcud olduqda, digər komponentlər üzrə potensial olsa belə, praktiki reallaşma imkanları məhdudlaşır və iqtisadi transformasiya prosesinin sürəti aşağı düşür. Yüksək infrastruktur balı, adətən, YNİİ üzrə lider və yüksək orta performans nümayiş etdirən ölkələrə xasdır və yeni nəsil iqtisadiyyatın bütün digər komponentlərinin reallaşdırılması üçün zəruri baza rolunu oynayır.

### 2.9.7. İqtisadi performans (makroiqtisadi sabitlik)

İqtisadi performans subindeksi inflyasiya, büdcə kəsiri, dövlət borcunun ÜDM-də payı, ÜDM-in real artım tempi və digər makroiqtisadi sabitlik göstəricilərini əhatə edir. Makro sabitlik həm daxili, həm də xarici investorlar üçün risk səviyyəsini müəyyənləşdirir və uzunmüddətli iqtisadi inkişafın “fond şəraitini” formalaşdırır. Bununla belə, YNİİ daha çox struktur keyfiyyət – innovasiya, rəqəmsallıq, insan kapitalı və inklüzivlik komponentlərinə fokuslandığı üçün makro sabitlik subindeksi ilə korelyasiya, bir qayda olaraq, orta və ya zəif olur. Bəzi ölkələrdə makro göstəricilər qənaətbəxş səviyyədə olsa da, innovasiya, rəqəmsallaşma və insan kapitalı sahələrindəki boşluqlar səbəbindən YNİİ üzrə ümumi bal orta səviyyədə qala bilər.

### 2.9.8. Təhsil

Təhsil subindeksi təhsil sisteminin əhatə dairəsini, keyfiyyət göstəricilərini, ali təhsilli əhalinin payını və xüsusilə STEM ixtisasları üzrə göstəriciləri özündə birləşdirir. Bu subindeks insan kapitalının keyfiyyətini və bilik əsaslı iqtisadiyyata keçid potensialını qiymətləndirməyə imkan verir. Empirik nəticələr göstərir ki, təhsil subindeksi YNİİ-nin ən güclü determinantlarından biridir və yekun indekslə çox güclü müsbət korelyasiya nümayiş etdirir. İnsan kapitalına sistemli investisiya olmadan yeni nəsil iqtisadiyyatın digər komponentlərinin dayanıqlı və uzunmüddətli inkişafı mümkün deyil. Bu baxımdan təhsil sahəsi bütün subindekslər üçün çarpan təsiri yaradan strateji istiqamət kimi çıxış edir.

### 2.9.9. Səhiyyə

Səhiyyə subindeksi orta ömür uzunluğu, ana və uşaq ölümü, səhiyyə xərclərinin səviyyəsi, tibbi xidmətə çıxış və xidmətin keyfiyyəti kimi göstəricilər əsasında formalaşdırılır. Bu göstəricilər əhalinin sağlamlıq vəziyyətini və səhiyyə sisteminin dayanıqlılığını əks etdirir. Səhiyyə subindeksinin YNİİ ilə əlaqəsi, adətən, orta-güclü müsbət səviyyədə olur: sağlam əhali daha yüksək əmək məhsuldarlığı, daha az xəstəlik səbəbli əmək itkisi və daha stabil sosial mühit deməkdir. COVID-19 pandemiyası bir daha göstərdi ki, səhiyyə sisteminin dayanıqlılığı

və çevik reaksiya qabiliyyəti iqtisadiyyatın fasiləsizliyi və şoklara qarşı dayanıqlığı üçün kritik əhəmiyyət kəsb edir.

### 2.9.10. Sosial inklüzivlik və bərabərlik

Sosial inklüzivlik və bərabərlik subindeksi yoxsulluq səviyyəsi, gəlir bərabərsizliyi, gender bərabərliyi və regionlararası fərqlər kimi göstəricilərə əsaslanır. Bu subindeks əhalinin müxtəlif təbəqələrinin iqtisadi və sosial həyata inteqrasiya dərəcəsini və imkan bərabərliyini xarakterizə edir. Bəzi ölkələrdə sosial inklüzivlik siyasəti iqtisadi transformasiya ilə eyni templə həyata keçirilmədiyindən, sosial inklüzivliklə YNİİ arasındakı əlaqə zəif, hətta müəyyən hallarda mənfi ola bilər. Bu, iqtisadi artımın meyvələrinin bütün əhali qrupları arasında bərabər şəkildə bölüşdürülmədiyini və yeni nəsil iqtisadiyyat modelinin tam inklüziv xarakter daşımadığını göstərir. İnklüziv və innovativ iqtisadiyyatın formalaşdırılması üçün sosial siyasət təhsil və məşğulluq siyasəti ilə inteqrasiya olunmalı, həssas qrupların əmək bazarına və rəqəmsal imkanlara çıxışı sistemli şəkildə genişləndirilməlidir.

### 2.9.11. Yekun ümumiləşdirmə

YNİİ-nin strukturunu təşkil edən subindekslərin ümumi təhlili göstərir ki, yeni nəsil iqtisadiyyat ənənəvi makroiqtisadi çərçivədən kənara çıxan, çoxölçülü və qarşılıqlı asılılıqlara əsaslanan kompleks bir modeldir. Demoqrafik struktur, bacarıq və texnoloji hazırlıq, innovasiya potensialı, kreativ iqtisadiyyat, platforma və paylaşma iqtisadiyyatı, infrastruktur, makroiqtisadi sabitlik, təhsil, səhiyyə, sosial inklüzivlik və bərabərlik kimi komponentlər birgə qiymətləndirildikdə iqtisadiyyatın həm “sərt” (infrastruktur, makro göstəricilər), həm də “yumşaq” (bilik, institusional mühit, sosial kapital) tərəfləri üzə çıxır.

Subindekslər üzrə aparılan konseptual və empirik təhlil təsdiq edir ki, yeni nəsil iqtisadiyyatın formalaşması üçün təkcə yüksək ÜDM artımı və makro sabitlik kifayət etmir. Paralel şəkildə insan kapitalının, innovasiya ekosisteminin, rəqəmsal və fiziki infrastrukturun, kreativ və platforma əsaslı biznes modellərinin, həmçinin sosial inklüzivlik siyasətlərinin balanslı və koordinasiyalı inkişafı zəruridir. Bu baxımdan YNİİ klassik iqtisadi göstəricilərdən fərqli olaraq, ölkələrin inkişaf səviyyəsini yalnız nəticələr (outcome) üzrə deyil, həm də bu nəticələri şərtləndirən struktur və institusional amillər üzrə dəyərləndirməyə imkan verir.

Nəhayət, YNİİ-ni təşkil edən subindekslər siyasətçilər, tədqiqatçılar və biznes subyektləri üçün bir növ “strateji xəritə” funksiyasını yerinə yetirir: hər bir ölkə üzrə güclü və zəif tərəflər dəqiq lokalizə olunur, prioritet müdaxilə sahələri müəyyənləşir və yeni nəsil iqtisadiyyat modelinə keçidi sürətləndirmək üçün hədəfli siyasət paketləri formalaşdırmaq mümkün olur. Beləliklə, YNİİ həm analitik diaqnostika aləti, həm də uzunmüddətli, bilik və innovasiyaya əsaslanan inkişaf strategiyalarının işlənib hazırlanması üçün praktiki baza kimi çıxış edir.

# III Hissə: QLOBAL NƏTİCƏLƏR VƏ REYTİNQLƏR

## 3.1. Ümumi reytinq və əsas nəticələr

Bu bölmədə YNİİ üzrə tədqiqata cəlb olunmuş 15 ölkənin yekun balı və reytinq sırası təqdim olunur. Cədvəl 3.1-də ölkələr 0-100 şkalasında hesablanmış YNİİ ballarına görə azalan sıra ilə düzülmüşdür ki, bu da yeni nəsil iqtisadiyyat meyarlarına ümumi uyğunluğun və hazırlıq səviyyəsinin müqayisəli qiymətləndirilməsinə imkan verir.

### 3.1.1 Ümumi reytinq (15 ölkə)




| Ölkə | YNİİ | Reytinq | Reytinq qrupu |
|---|---|---|---|
| Çin | 74,42 | 1 | Lider |
| Macarıstan | 58,98 | 2 | Yüksək |
| Türkiyə | 53,73 | 3 | Yüksək |
| Şimali Kipr | 53,23 | 4 | Yüksək |
| Gürcüstan | 50,92 | 5 | Yüksək |
| Qazaxıstan | 49,71 | 6 | Orta |
| Özbəkistan | 43,99 | 7 | Orta |
| Azərbaycan | 42,11 | 8 | Orta |
| Monqolustan | 41,83 | 9 | Orta |
| Qırğızıstan | 40 | 10 | Orta |
| İran | 39,12 | 11 | Aşağı |
| Türkmənistan | 34,74 | 12 | Aşağı |
| Tacikistan | 32,85 | 13 | Aşağı |
| Pakistan | 22,2 | 14 | Aşağı |
| Əfqanıstan | 12,76 | 15 | Aşağı |

Qeyd: Qruplar YNİİ balının paylanmasına əsasən müəllif tərəfindən formalaşdırılmışdır (Lider ≥70; Yüksək 50–69.9; Orta 40–50; Aşağı <40).

## Qruplar üzrə orta göstəricilər (Ümumi. Input. Output)




### Cədvəl 3.1: Ölkələrin Tam Reytinq Cədvəli

| Reytinq | Ölkə | YNİİ | Input | Output | Səmərəlilik | Kateqoriya |
|---|---|---|---|---|---|---|
| 1 | Çin | 74,42 | 43,70 | 30,72 | 0,70 | Yüksək |
| 2 | Macarıstan | 58,98 | 41,48 | 17,49 | 0,42 | Yüksək |
| 3 | Türkiyə | 53,73 | 41,81 | 11,93 | 0,29 | Yüksək |
| 4 | Şimali Kipr | 53,23 | 42,90 | 10,32 | 0,24 | Yüksək |
| 5 | Gürcüstan | 50,92 | 43,42 | 7,52 | 0,17 | Yüksək |
| 6 | Qazaxıstan | 49,71 | 38,53 | 11,19 | 0,29 | Orta |
| 7 | Özbəkistan | 43,99 | 33,88 | 10,11 | 0,30 | Orta |
| 8 | Azərbaycan | 42,11 | 36,66 | 5,45 | 0,15 | Orta |
| 9 | Monqolustan | 41,83 | 35,35 | 6,48 | 0,18 | Orta |
| 10 | Qırğızıstan | 39,80 | 33,38 | 6,42 | 0,19 | Orta |
| 11 | İran | 39,12 | 33,51 | 5,61 | 0,17 | Aşağı |
| 12 | Türkmənistan | 34,74 | 32,54 | 2,18 | 0,07 | Aşağı |
| 13 | Tacikistan | 32,85 | 30,34 | 2,51 | 0,08 | Aşağı |
| 14 | Pakistan | 22,20 | 17,85 | 4,35 | 0,24 | Aşağı |
| 15 | Əfqanıstan | 12,76 | 12,75 | - | - | Aşağı |

*Qeyd: Səmərəlilik = Output/Input nisbəti*

Hesablamaların nəticələrinə görə, YNİİ balı ölkələr üzrə təxminən 12-74 şkalasında geniş intervalda dəyişir. Ölkələrin əksəriyyəti orta zolaqda cəmləşir, az sayda ölkə çox yüksək və çox aşağı bal qütblərində toplanır. İndeksin median dəyəri orta səviyyəli performans göstərən ölkələrin üstünlük təşkil etdiyini göstərir ki, bu da yeni nəsil iqtisadiyyata keçidin hələ tam formalaşmadığını, lakin geniş potensialın mövcud olduğunu göstərən "keçid mərhələsi" mənzərəsini əks etdirir.

Analitik məqsədlə ölkələr YNİİ dəyərlərinə əsasən üç əsas qrupa bölünə bilər:

- **Yüksək YNİİ qrupuna** daxil olan ölkələr hər 10 subindeks üzrə nisbətən balanslaşdırılmış performans nümayiş etdirir. Bu ölkələrdə innovasiya, təhsil, bacarıq və texnoloji hazırlıq, infrastruktur və platforma iqtisadiyyatı üzrə göstəricilər xüsusi olaraq yüksəkdir. Onlar həm rəqəmsal transformasiyanı, həm də sosial inklüzivlik ölçülərini nisbətən uğurlu şəkildə birləşdirə bilirlər.
- **Orta YNİİ qrupu** adətən bəzi subindekslərdə (məsələn, demoqrafik struktur, təhsil və ya səhiyyə) qənaətbəxş nəticələr göstərsə də, innovasiya, rəqəmsallaşma, kreativ və platforma iqtisadiyyatı sahələrində geri qalma ilə səciyyələnir. Bu ölkələr üçün əsas çağırış "ənənəvi artım modelindən" bilik və texnologiya əsaslı inkişaf modelinə keçidin sürətləndirilməsidir.
- **Aşağı YNİİ qrupunda** olan ölkələrdə həm insan kapitalı, həm də rəqəmsal və fiziki infrastruktur üzrə ciddi boşluqlar mövcuddur. Bu ölkələrdə sosial inklüzivlik və institusional idarəetmə problemləri yeni nəsil iqtisadiyyatın formalaşmasını əlavə risklər altında qoyur. Bu qrup üçün ilkin mərhələdə əsas prioritet "baza şərtlərin" - təhsil, səhiyyə, rəqəmsal infrastruktur və makroiqtisadi sabitliyin gücləndirilməsi olmalıdır.

Ümumi mənzərə onu göstərir ki, YNİİ yalnız iqtisadi artım templərini deyil, keyfiyyət, dayanıqlılıq və inklüzivlik kimi ölçüləri də nəzərə alan çoxölçülü qiymətləndirmə aləti kimi ölkələr arasında inkişaf fərqlərini daha incə səviyyədə üzə çıxarmağa imkan verir. Növbəti bölmələrdə subindekslər üzrə nəticələr və korelyasiya analizi bu ümumi mənzərəni daha detallı şəkildə şərh edir.

**Şəkil 5. Input–Output münasibəti (qabarcıq: YNİİ balı)**






*Şəkil 6. YNİİ Göstəriciləri: İstilik Xəritəsi*

Heatmap formatı bütün ölkələr üzrə YNİİ, Input və Output göstəricilərinin vizual müqayisəsini təmin edir. Yaşıl rəng yüksək, qırmızı rəng isə aşağı performansı əks etdirir. Xəritə ölkələr arasında əhəmiyyətli fərqləri və inkişaf boşluqlarını aydın şəkildə göstərir.

## 3.2. Korrelyasiya matrisi və struktur əlaqələr

YNİİ-nin daxili strukturunu və subindekslərin qarşılıqlı təsirini qiymətləndirmək məqsədilə Pearson korrelyasiya matrisi hesablanmışdır. Cədvəldə rənglər əlaqənin gücünü göstərir: yaşıl tonlar güclü müsbət, sarı orta, qırmızı isə zəif və ya mənfi əlaqəni bildirir.

Korrelyasiya əmsallarının şərhində aşağıdakı meyarlar əsas götürülür:

- |r| ≈ 0,0–0,3 – zəif əlaqə,
- |r| ≈ 0,3–0,6 – orta güclü əlaqə,
- |r| ≈ 0,6–0,8 – kifayət qədər güclü əlaqə,
- |r| > 0,8 – güclü və çox güclü əlaqə.

| Subindeks | Demoqrafik | Bacarıq | İnnovasiya | Kreativ | Platforma | İnfrastruktur | İqt. Performans | Təhsil | Səhiyyə | Sosial İnkl. | YNİİ |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Demoqrafik** | 1.00 | 0.70 | 0.38 | 0.53 | 0.56 | 0.67 | 0.34 | 0.64 | 0.83 | 0.03 | 0.88 |
| **Bacarıq** | 0.70 | 1.00 | 0.49 | 0.64 | 0.72 | 0.81 | 0.51 | 0.88 | 0.67 | *-0.08* | 0.82 |
| **İnnovasiya** | 0.38 | 0.49 | 1.00 | 0.91 | 0.91 | 0.62 | 0.42 | 0.69 | 0.39 | 0.34 | 0.78 |
| **Kreativ** | 0.53 | 0.64 | 0.91 | 1.00 | 0.96 | 0.74 | 0.46 | 0.73 | 0.65 | 0.05 | 0.86 |
| **Platforma** | 0.56 | 0.72 | 0.91 | 0.96 | 1.00 | 0.77 | 0.54 | 0.77 | 0.66 | *-0.03* | 0.91 |
| **İnfrastruktur** | 0.67 | 0.81 | 0.62 | 0.74 | 0.77 | 1.00 | 0.61 | 0.93 | 0.69 | 0.03 | 0.89 |
| **İqt. Performans** | 0.34 | 0.51 | 0.42 | 0.46 | 0.54 | 0.61 | 1.00 | 0.60 | 0.32 | 0.21 | 0.31 |
| **Təhsil** | 0.64 | 0.88 | 0.69 | 0.73 | 0.77 | 0.93 | 0.60 | 1.00 | 0.59 | 0.07 | 0.92 |
| **Səhiyyə** | 0.83 | 0.67 | 0.39 | 0.65 | 0.66 | 0.69 | 0.32 | 0.59 | 1.00 | 0.00 | 0.65 |
| **Sosial İnkl.** | 0.03 | *-0.08* | 0.34 | 0.05 | *-0.03* | 0.03 | 0.21 | 0.07 | 0.00 | 1.00 | *-0.39* |
| **YNİİ** | **0.88** | **0.82** | **0.78** | **0.86** | **0.91** | **0.89** | **0.31** | **0.92** | **0.65** | ***-0.39*** | **1.00** |

### 3.2.1. Struktur əlaqələr və "drayver" komponentlər

Korrelyasiya analizi subindekslər arasında daxili əlaqələri və YNİİ-ni daha güclü "sürükləyən" komponentləri ayırd etməyə kömək edir. Nümunə məlumatları üzrə platforma/paylaşım iqtisadiyyatı, təhsil və demoqrafik struktur YNİİ ilə daha yüksək müsbət əlaqə göstərir; sosial inklüzivlik və makroiqtisadi performans isə daha zəif və bəzi hallarda mənfi əlaqələr verə bilər.




*Şəkil 7. Subindekslər arasında korelyasiya matrisi*

### 3.2.2. Əsas nəticələr:

- **Ən güclü determinantlar:** təhsil (r=0.92), platforma və paylaşma iqtisadiyyatı (r=0.91), infrastruktur (r=0.89), demoqrafik struktur (r=0.88) və kreativ iqtisadiyyat (r=0.86) YNİİ ilə ən güclü müsbət əlaqəyə malikdir. Bu, YNİİ-nin əsasən bilik, texnologiya, platforma əsaslı modellər və insan kapitalının keyfiyyəti hesabına formalaşdığını təsdiq edir.
- **Makro sabitliyin məhdud rolu:** İqtisadi performans (makroiqtisadi sabitlik) subindeksi YNİİ ilə yalnız zəif-orta səviyyəli müsbət korrelyasiya (r=0.31) nümayiş etdirir. Bu, ənənəvi makro sabitliyin zəruri, lakin yeni nəsil iqtisadiyyat üçün kifayət şərt olmadığını, struktur keyfiyyətin isə daha böyük rol oynadığını göstərir.
- **Output blokunun daxili sinerjisi:** innovasiya, kreativ iqtisadiyyat və platforma iqtisadiyyatı subindeksləri arasında çox güclü müsbət korrelyasiya (r > 0.90) müşahidə olunur. Bu, innovasiya ekosistemi, yaradıcı sənayelər və rəqəmsal platforma modellərinin bir-birini qarşılıqlı şəkildə gücləndirdiyini və birlikdə yeni nəsil iqtisadiyyatın "dinamik nüvəsini" formalaşdırdığını göstərir.

- **Sosial inklüzivliyin mənfi əlaqəsi:** Sosial inklüzivlik və bərabərlik subindeksi YNİİ ilə mənfi korrelyasiya (r=-0.39) nümayiş etdirir. Bu nəticə bir tərəfdən göstərir ki, bir çox ölkələrdə yüksək iqtisadi performans və texnoloji inkişaf sosial bərabərlik və inklüzivliklə hələ tam sinxronlaşmayıb. Digər tərəfdən isə sosial inklüzivlik siyasətinin sistemli şəkildə iqtisadi transformasiya ilə inteqrasiyasına ehtiyac olduğunu vurğulayır.

Ümumilikdə, korelyasiya nəticələri təsdiq edir ki, YNİİ-nin əsas determinantları insan kapitalı (təhsil və bacarıqlar), innovasiya, rəqəmsal və fiziki infrastruktur, eləcə də platforma və kreativ iqtisadiyyat komponentləridir.

### 3.2.3. Subindekslərin öz aralarındakı struktur əlaqələr

Korelyasiya matrisi subindekslər arasında da bir sıra maraqlı struktur əlaqələri üzə çıxarır:

- **İnnovasiya, kreativ iqtisadiyyat və platforma iqtisadiyyatı** arasında çox güclü müsbət korelyasiya müşahidə olunur (r ≈ 0,9 və yuxarı). Bu, innovasiya ekosistemi, yaradıcı sənayelər və rəqəmsal platforma modellərinin bir-birini qarşılıqlı şəkildə gücləndirdiyini və birlikdə yeni nəsil iqtisadiyyatın "dinamik nüvəsini" formalaşdırdığını göstərir.
- **Təhsil, bacarıq və texnoloji hazırlıq, infrastruktur** arasında da yüksək müsbət korelyasiya qeyd olunur. Bu üç komponent faktiki olaraq bilik və texnologiya əsaslı iqtisadiyyatın "insan + texnologiya + infrastruktur" üçlüyünü yaradır və bir sahədəki irəliləyiş çox zaman digərlərində də müsbət dinamika ilə müşayiət olunur.
- **Demoqrafik struktur** ilə təhsil, səhiyyə və bacarıq-texnoloji hazırlıq arasında kifayət qədər güclü müsbət əlaqə müşahidə edilir. Bu, gənc və əmək qabiliyyətli əhalinin yüksək payının yalnız təhsil və sağlamlıq göstəriciləri yetərli olduqda real "demoqrafik dividendlərə" çevrilə biləcəyini göstərir.
- **İqtisadi performans** subindeksinin innovasiya, infrastruktur və digər komponentlərlə əlaqəsi əsasən orta səviyyədədir. Bu, bir sıra ölkələrdə makro sabitliyin olmasına baxmayaraq, innovasiya və rəqəmsal transformasiya sahəsində hələ də çatışmazlıqların qalmasını əks etdirir.
- **Sosial inklüzivlik və bərabərlik** subindeksi digər komponentlərlə, xüsusilə platforma iqtisadiyyatı, bacarıq və texnoloji hazırlıq, infrastruktur və səhiyyə ilə ya zəif, ya da mənfi istiqamətli, lakin statistik baxımdan məhdud əlaqələr nümayiş etdirir. Bu, bir çox iqtisadiyyatlarda sosial siyasətin iqtisadi və texnoloji transformasiya ilə paralel və inteqrasiya olunmuş şəkildə həyata keçirilmədiyini göstərir.

Korrelyasiya şəkli onu da göstərir ki, bəzi ölkələrdə input göstəriciləri yüksək, output göstəriciləri isə nisbətən aşağıdır. Bu hal mövcud resurs və imkanların tam reallaşdırılmadığını, innovasiya və biznes mühitində institusional, normativ və bazar məhdudiyyətlərinin mövcud ola biləcəyini göstərir. Əksinə, məhdud input bazasına baxmayaraq nisbətən yüksək output nəticələri nümayiş etdirən ölkələrdə idarəetmə keyfiyyəti, hədəfli dəstək mexanizmləri, açıq innovasiya mədəniyyəti və çevik biznes mühiti hesabına resurslardan daha

yüksək səmərəlilik əldə olunduğu ehtimal edilir.

Beləliklə, korelyasiya matrisi və input-output prizmasında struktur təhlil YNİİ-nin yüksəldilməsi üçün siyasət paketlərinin həm input blokunun gücləndirilməsinə (təhsil, bacarıq, infrastruktur, sosial inklüzivlik, səhiyyə, makro sabitlik), həm də output blokunun genişləndirilməsinə (innovasiya, kreativ sektorlar, platforma iqtisadiyyatı) paralel və qarşılıqlı əlaqəli şəkildə istiqamətləndirilməli olduğunu göstərir. Yalnız bu halda yeni nəsil iqtisadiyyat resurs potensialı ilə faktiki nəticələr arasında tarazlığın təmin olunduğu, dayanıqlı və inklüziv inkişaf trayektoriyası formalaşdırıla bilər.

Texniki səviyyədə korelyasiya əmsallarının hesablanma proseduru, istifadə olunan riyazi formul və statistik göstəricilər Hesabatın "Əlavə A. Texniki metodologiya" bölməsində ətraflı təqdim olunur. Burada isə əsas diqqət korelyasiya nəticələrinin analitik interpretasiyasına yönəldilir.

## 3.3. Input-Output Təhlili

Scatter qrafik ölkələrin input (potensial) və output (nəticə) balları arasındakı əlaqəni göstərir. Diaqonal xəttin üstündə yerləşən ölkələr öz potensialından səmərəli istifadə edir. Çin və Macarıstan yüksək səmərəlilik nümayiş etdirir, digər ölkələrdə isə istifadə olunmamış potensial müşahidə olunur.




*Şəkil 8. Input–Output münasibəti (qabarcıq: YNİİ balı)*




*Şəkil 9. Input-Output Müqayisəsi: Potensial və Nəticə*

| Ölkə | Input Sub-indeksi | Output Sub-indeksi | YNİİ | |
|---|---|---|---|---|
| Çin | 40,97 | 33,45 | 74,42 | |
| Macarıstan | 38,77 | 20,21 | 58,98 | |
| Türkiyə | 35,07 | 18,66 | 53,73 | |
| Şimali Kipr | 40,87 | 12,36 | 53,23 | |
| Gürcüstan | 37,50 | 13,42 | 50,92 | |
| Qazaxıstan | 35,48 | 14,23 | 49,71 | |
| Özbəkistan | 30,41 | 13,58 | 43,99 | |
| Azərbaycan | 34,12 | 8,00 | 42,11 | |
| Monqolustan | 32,50 | 9,33 | 41,83 | |
| Qırğızıstan | 29,84 | 9,96 | 39,80 | |
| İran | 29,17 | 9,95 | 39,12 | |
| Türkmənistan | 29,07 | 5,66 | 34,74 | |
| Tacikistan | 26,71 | 6,14 | 32,85 | |
| Pakistan | 15,17 | 7,02 | 22,20 | |
| Əfqanıstan | 11,83 | 0,92 | 12,76 | |

*Şəkil 10. YNİİ üzrə qlobal reytinq (0–100)*

## 3.4. Səmərəlilik göstəriciləri




*Şəkil 11. Ölkələrin Səmərəlilik Göstəriciləri*

## 3.5. Performans kateqoriyaları

Output/Input nisbəti ölkələrin öz resurslarından nə dərəcədə səmərəli istifadə etdiyini göstərir. Çin (0.70) və Macarıstan (0.42) ən yüksək səmərəlilik nisbətinə malikdir. Bir sıra ölkələrdə (Azərbaycan, İran, Türkmənistan) bu nisbət 0.20-dən aşağıdır ki, bu da struktural islahatların zəruriliyinə işarə edir.

**Cədvəl 3.2: Performans Kateqoriyaları**

| Kateqoriya | YNİİ Diapazonu | Ölkə Sayı | Ölkələr |
|---|---|---|---|
| **Yüksək Performans** | ≥ 50 | 5 | Çin, Macarıstan, Türkiyə, Şimali Kipr, Gürcüstan |
| **Orta Performans** | 40-30 | 5 | Qazaxıstan, Özbəkistan, Azərbaycan, Monqolustan, Qırğızıstan |
| **Aşağı Performans** | **< 30** | **5** | İran, Türkmənistan, Tacikistan, Pakistan, Əfqanıstan |

## 3.6. Regional müqayisələr

Bu bölmədə YNİİ üzrə nəticələr seçilmiş regional bloklar – İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Türk Dövlətləri Təşkilatı (TDT) və CAREC proqramı – kontekstində müqayisəli şəkildə təhlil olunur. Məqsəd həm ölkədaxili profilləri, həm də regionlararası nisbətlər və inkişaf trayektoriyalarını üzə çıxarmaqdır.

### 3.6.1. Regional bloklar üzrə ümumi mənzərə




*Şəkil 12.Regional müqayisə: Orta YNİİ göstəriciləri*

Regional bloklar üzrə orta YNİİ göstəriciləri müqayisə edilir. TDT müşahidəçi ölkələri (48.98) ən yüksək orta göstəriciyə malikdir, ardınca TDT üzv ölkələri (45.87) və CAREC (40.48) gəlir. İƏT (ECO) regionu (37.10) ölkələr arasında ən böyük variasiyanı nümayiş etdirir.

**Cədvəl 3.3: Regional statistika (Ətraflı)**

| Region | Ölkə Sayı | Orta YNİİ | Median | Std. Sapma | Min | Max | Aralıq |
|---|---|---|---|---|---|---|---|
| **İƏT (ECO)** | 10 | 37.10 | 39.46 | 13.45 | 12.76 | 53.73 | 40.97 |
| **CAREC** | 11 | 40.48 | 41.83 | 17.21 | 12.76 | 74.42 | 61.66 |
| **TDT (üzv)** | 5 | 45.87 | 43.99 | 6.12 | 39.80 | 53.73 | 13.93 |
| **TDT (müşahidəçi)** | **3** | **48.98** | **53.23** | **13.20** | **34.74** | **58.98** | **24.24** |

**Cədvəl 3.4: Regional xülasə**

| Region | Ölkə Sayı | Orta YNİİ | Median YNİİ | Orta Input | Orta Output | Lider Ölkə | Top Bal |
|---|---|---|---|---|---|---|---|
| **İƏT** | 10 | 37.10 | 39.46 | 31.13 | 5.98 | Türkiyə | **53.73** |
| **CAREC** | 11 | 40.48 | 41.83 | 32.58 | 7.90 | Çin | **74.42** |
| **TDT (üzv)** | 5 | 45.87 | 43.99 | 36.85 | 9.02 | Türkiyə | **53.73** |
| **TDT (müşahidəçi)** | **3** | **48.98** | **53.23** | **38.97** | **10.00** | **Macarıstan** | 58.98 |

### 3.6.2. İƏT Ölkələri

Bu Hesabatda təhlil olunan İƏT (ECO) ölkələri sırasına Əfqanıstan, Azərbaycan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistan daxildir. Bu ölkələr üçün YNİİ-nin orta göstəricisi təqribən 37 bal səviyyəsində formalaşır ki, bu da ümumilikdə "orta" performans zolağına uyğun gəlir.

İƏT çərçivəsində ölkələr arasında nəzərəçarpacaq heterogenlik müşahidə olunur. Nisbətən yüksək performanslı ölkələr:

- **Türkiyə və Qazaxıstan** YNİİ üzrə İƏT daxilində ön sıralarda qərarlaşır. **Azərbaycan və Özbəkistan** isə bu qrupun "təqib edən" seqmentini formalaşdırır. Bu ölkələrdə xüsusilə bacarıq və texnoloji hazırlıq, infrastruktur və təhsil subindeksləri üzrə nəticələr nisbi üstünlük yaradır, lakin innovasiya və kreativ iqtisadiyyat komponentlərində potensial tam reallaşmayıb.
- **Orta performanslı ölkələr**: **Qırğızıstan, İran və Türkmənistan** YNİİ üzrə orta səviyyəyə yaxın nəticələr göstərir. Bu ölkələrdə demoqrafik struktur və sosial inklüzivlik göstəriciləri müəyyən üstünlüklər yaratsa da, innovasiya, platforma iqtisadiyyatı və rəqəmsal bacarıqlar sahəsində boşluqlar müşahidə edilir.
- **Aşağı performanslı ölkələr**: **Pakistan, Tacikistan və Əfqanıstan** İƏT blokunda YNİİ üzrə ən aşağı göstəricilərə malikdir. Bu ölkələrdə həm input bloku (təhsil, səhiyyə, infrastruktur, sosial inklüzivlik), həm də output bloku (innovasiya, kreativ və platforma iqtisadiyyatı) üzrə sistemli məhdudiyyətlər mövcuddur.

Ümumən, İƏT regionu üçün YNİİ profili onu göstərir ki, təbii resurslar və demoqrafik potensial mühüm imkanlar yaratsa da, yeni nəsil iqtisadiyyat komponentlərinin inkişafı üçün insan kapitalına, innovasiya ekosisteminə və rəqəmsal transformasiyaya yönəlmiş koordinasiyalı siyasət paketlərinə ehtiyac qalmaqdadır.

**Cədvəl 3.51. İƏT ölkələri üzrə YNİİ balı və qlobal reytinq**

| Reytinq | Ölkə | Input | Output | YNİİ |
|---|---|---|---|---|
| 3 | Türkiyə | 41.81 | 11.93 | 53.73 |
| 6 | Qazaxıstan | 38.53 | 11.19 | 49.71 |
| 7 | Özbəkistan | 33.88 | 10.11 | 43.99 |
| 8 | Azərbaycan | 36.66 | 5.45 | 42.11 |
| 10 | Qırğızıstan | 33.38 | 6.42 | 39.80 |
| 11 | İran | 33.51 | 5.61 | 39.12 |
| 12 | Türkmənistan | 32.54 | 2.18 | 34.74 |
| 13 | Tacikistan | 30.34 | 2.51 | 32.85 |
| 14 | Pakistan | 17.85 | 4.35 | 22.20 |
| 15 | Əfqanıstan | 12.75 | 0.00 | 12.76 |

**Cədvəl 3.6. İƏT ölkələrinin performansı**

| Ölkə | YNİİ balı | Qlobal reytinq (N = 15) | İƏT üzrə performans qrupu |
|---|---|---|---|
| Türkiyə | 53,73 | 3 | Orta–yüksək |
| Qazaxıstan | 49,71 | 6 | Orta |
| Özbəkistan | 43,99 | 7 | Orta |
| Azərbaycan | 42,11 | 8 | Orta |
| Qırğızıstan | 39,80 | 10 | Orta–aşağı |
| İran | 39,12 | 11 | Orta–aşağı |
| Türkmənistan | 34,74 | 12 | Aşağı |
| Tacikistan | 32,85 | 13 | Aşağı |
| Pakistan | 22,20 | 14 | Aşağı |
| Əfqanıstan | 12,76 | 15 | Aşağı |

*Şəkil 13. İƏT (ECO) ölkələri üzrə YNİİ ballarının paylanması*



### 3.6.3. CAREC ölkələri

CAREC-ə daxil olan və Hesabatda təhlil edilən ölkələr: Əfqanıstan, Azərbaycan, Çin, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistandır. Bu qrup üzrə YNİİ-nin orta göstəricisi təqribən 40-41 bal səviyyəsindədir. Lakin region daxilində çox güclü heterogenlik mövcuddur:

- **Regional lider və qlobal istinad nöqtəsi. Çin** CAREC regionunda açıq fərqlə liderdir və YNİİ üzrə ən yüksək bal toplayan ölkədir. Bu nəticə xüsusilə innovasiya, platforma və paylaşma iqtisadiyyatı, bacarıq və texnoloji hazırlıq, həmçinin infrastruktur subindekslərində yüksək performansla izah olunur. Çin faktiki olaraq CAREC çərçivəsində "müqayisə üçün referans ölkə" rolunu oynayır.
- **Orta-yüksək performanslı ölkələr**. **Qazaxıstan, Azərbaycan və Gürcüstan** CAREC daxilində orta-yüksək YNİİ nəticələrinə malikdir. Bu ölkələrdə rəqəmsal infrastruktur, təhsil və müəyyən dərəcədə bacarıq və texnoloji hazırlıq göstəriciləri regionun bir çox digər ölkələrinə nisbətən daha yaxşıdır. Lakin innovasiya, kreativ sektorlar və sosial inklüzivlik sahəsində boşluqlar hələ də qalmaqdadır.
- **Keçid və aşağı performanslı ölkələr: Monqolustan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Pakistan və Əfqanıstan** YNİİ üzrə CAREC ortalamasının ya yaxınında, ya da ondan xeyli aşağıda yerləşir. Bu ölkələr üçün tipik problem sahələri aşağıdakı kimi ümumiləşdirilə bilər:
  - təhsil və bacarıq səviyyəsində strukturlu çatışmazlıqlar;
  - infrastruktur yetərsizliyi (xüsusilə rəqəmsal əlaqəlilikdə boşluqlar);
  - innovasiya və kreativ iqtisadiyyatın zəif institusional dəstəyi;
  - sosial inklüzivlik və bərabərlik üzrə risklərin yüksəkliyi.

CAREC çərçivəsində aparılan müqayisə onu göstərir ki, region daxilində "çoxsəviyyəli inkişaf trayektoriyası" mövcuddur: **Çin** və bir neçə "orta-yüksək" performanslı ölkə **(Qazaxıstan, Azərbaycan, Gürcüstan)** yeni nəsil iqtisadiyyat elementlərini daha sürətlə mənimsəyir, digər ölkələr isə əsasən baza infrastrukturunun, təhsilin və institusional mühitin möhkəmləndirilməsi mərhələsindədir.

**Cədvəl 3.8. CAREC ölkələri üzrə YNİİ**

| Reytinq | Ölkə | Input | Output | YNİİ |
|---|---|---|---|---|
| 1 | Çin | 43.70 | 30.72 | 74.42 |
| 5 | Gürcüstan | 43.42 | 7.52 | 50.92 |
| 6 | Qazaxıstan | 38.53 | 11.19 | 49.71 |
| 7 | Özbəkistan | 33.88 | 10.11 | 43.99 |
| 8 | Azərbaycan | 36.66 | 5.45 | 42.11 |
| 9 | Monqolustan | 35.35 | 6.48 | 41.83 |
| 10 | Qırğızıstan | 33.38 | 6.42 | 39.80 |
| 12 | Türkmənistan | 32.54 | 2.18 | 34.74 |
| 13 | Tacikistan | 30.34 | 2.51 | 32.85 |
| 14 | Pakistan | 17.85 | 4.35 | 22.20 |
| 15 | Əfqanıstan | 12.75 | 0.00 | 12.76 |

**Cədvəl 3.9. CAREC ölkələrinin performansı**

| Ölkə | YNİİ balı | Qlobal reytinq (N = 15) | CAREC üzrə performans qrupu |
|---|---|---|---|
| Çin | 74,42 | 1 | Yüksək lider |
| Gürcüstan | 50,92 | 5 | Orta–yüksək |
| Qazaxıstan | 49,71 | 6 | Orta–yüksək |
| Özbəkistan | 43,99 | 7 | Orta |
| Azərbaycan | 42,11 | 8 | Orta |
| Monqolustan | 41,83 | 9 | Orta |
| Qırğızıstan | 39,80 | 10 | Orta–aşağı |
| Türkmənistan | 34,74 | 12 | Aşağı |
| Tacikistan | 32,85 | 13 | Aşağı |
| Pakistan | 22,20 | 14 | Aşağı |
| Əfqanıstan | 12,76 | 15 | Aşağı |

### 3.6.4. TDT Ölkələri

TDT çərçivəsində Hesabata daxil olan ölkələr - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və müşahidəçi statusunda Macarıstan üzrə YNİİ nəticələri ümumi olaraq İƏT ortalamasından daha yüksəkdir. Bu qrup üçün YNİİ-nin orta göstəricisi təqribən 46 bal civarındadır ki, bu da regionun yeni nəsil iqtisadiyyat modelinə keçid potensialının daha yüksək olduğunu göstərir.

TDT ölkələrinin profili aşağıdakı əsas xüsusiyyətlərlə səciyyələnir:

- **Liderlər və "çəkmə mərkəzləri".** **Macarıstan və Türkiyə** TDT daxilində YNİİ üzrə ən yüksək göstəricilərə malikdir. **Qazaxıstan** da bu lider

**Cədvəl 3.10. TDT üzrə əsas göstəricilər paneli**

| Qlobal reytinq | Ölkə | YNİİ balı |
|---|---|---|
| 2 | Macarıstan (Müşahidəçi) | 58.98 |
| 3 | Türkiyə | 53.73 |
| 6 | Qazaxıstan | 49.71 |
| 7 | Özbəkistan | 43.99 |
| 8 | Azərbaycan | 42.11 |
| 10 | Qırğızıstan | 39.80 |
| 12 | Türkmənistan | 34.74 |

**Cədvəl 3.11. TDT Ölkələrinin Performansı (üzv və müşahidəçi)**

| Reytinq | Ölkə | Status | Input | Output | YNİİ |
|---|---|---|---|---|---|
| 2 | Macarıstan | Müşahidəçi | 41.48 | 17.49 | 58.98 |
| 3 | Türkiyə | Üzv | 41.81 | 11.93 | 53.73 |
| 4 | Şimali Kipr | Müşahidəçi | 42.90 | 10.32 | 53.23 |
| 6 | Qazaxıstan | Üzv | 38.53 | 11.19 | 49.71 |
| 7 | Özbəkistan | Üzv | 33.88 | 10.11 | 43.99 |
| 8 | Azərbaycan | Üzv | 36.66 | 5.45 | 42.11 |
| 10 | Qırğızıstan | Üzv | 33.38 | 6.42 | 39.80 |
| 12 | Türkmənistan | Müşahidəçi | 32.54 | 2.18 | 34.74 |

qrupuna yaxın mövqe tutur. Bu ölkələrdə bacarıq və texnoloji hazırlıq, infrastruktur və təhsil subindeksləri üzrə nisbətən güclü nəticələr müşahidə olunur, innovasiya və platforma iqtisadiyyatında isə orta-yüksək performans qeydə alınır.

- **Keçid mərhələsində olanlar**. **Azərbaycan, Özbəkistan və Qırğızıstan** üçün YNİİ profili "yüksək input – orta output" tipinə daha yaxındır:təhsil, demoqrafik struktur və rəqəmsal infrastruktur üzrə bazis göstəricilər nisbətən qənaətbəxş olsa da, innovasiya, kreativ iqtisadiyyat və platforma modelləri üzrə nəticələr hələ tam potensiala çatmayıb.

### 3.6.7. Regional siyasət üçün nəticələr və tövsiyələr

YNİİ üzrə regional təhlil göstərir ki, İƏT, TDT və CAREC məkanında yeni nəsil iqtisadiyyatın formalaşması həm ümumi çağırışlar, həm də fərqli inkişaf trayektoriyaları ilə xarakterizə olunur. Çin, Macarıstan, Türkiyə, Qazaxıstan və Gürcüstan kimi ölkələr "yüksək" və "orta-yüksək" performans qruplarında yer alaraq region daxilində referans nöqtələri rolunu oynayır; Azərbaycan, Özbəkistan və Monqolustan kimi ölkələr isə "orta" performanslı təqibçi qrupda həmin liderlərin təcrübəsindən faydalana biləcək potensial mərkəzlər kimi çıxış edir. Qırğızıstan, Türkmənistan, Tacikistan, Pakistan və Əfqanıstanın "orta-aşağı" və "aşağı" performans zonalarında cəmləşməsi isə regional siyasət gündəliyində "asimmetrik inkişaf" problemini ön plana çıxarır.

Input-output prizmasında yanaşdıqda, regional siyasət üçün aşağıdakı istiqamətlər xüsusi əhəmiyyət kəsb edir. Birincisi, İƏT,

- **Struktur məhdudiyyətləri olan ölkə. Türkmənistan** TDT daxilində nisbətən aşağı YNİİ göstəricisi ilə seçilir; burada xüsusilə innovasiya, platforma iqtisadiyyatı və kreativ sektorlar üzrə nəticələrin məhdud olduğu müşahidə edilir.

TDT ölkələri üçün YNİİ-nin region üzrə profili onu göstərir ki, ortaq dil, mədəni yaxınlıq və iqtisadi əməkdaşlıq platformaları mövcud sinerjini artırmağa imkan verir. Bu sinerjinin innovasiya layihələri, rəqəmsal ticarət dəhlizləri, birgə təhsil və tədqiqat proqramları istiqamətində reallaşdırılması yeni nəsil iqtisadiyyatın regional miqyasda sürətləndirilməsi üçün mühüm potensial yaradır.

TDT və CAREC çərçivəsində insan kapitalı, rəqəmsal bacarıqlar, infrastruktur və sosial inklüzivlik kimi input sahələrində ortaq proqramların (birgə təhsil təşəbbüsləri, rəqəmsal akademiyalar, transsərhəd infrastruktur layihələri, gənclər üçün bacarıq proqramları və s.) genişləndirilməsi, xüsusilə "orta-aşağı" və "aşağı" performanslı ölkələr üçün kritikdir. Bu, region daxilində minimum "yeni nəsil iqtisadiyyat standartı" formalaşdırmağa və "məhdud input – aşağı output" tələsindən çıxmağa kömək edə bilər.

İkincisi, innovasiya, kreativ iqtisadiyyat və platforma iqtisadiyyatı kimi output sahələrində regional əməkdaşlığın dərinləşdirilməsi vacibdir. Yüksək və orta-yüksək performanslı ölkələrdə formalaşmış innovasiya mərkəzləri, texnoparklar, startap ekosistemləri və rəqəmsal platformalar regionun digər ölkələri üçün "inkubator" rolunu oynaya bilər. Bu məqsədlə birgə fondların yaradılması, risk kapitalının regional səviyyədə səfərbər edilməsi, intellektual mülkiyyətin qorunması və texnologiya transferini asan-

laşdıran normativ çərçivələrin uyğunlaşdırılması tövsiyə edilir.

Üçüncüsü, YNİİ nəticələri göstərir ki, makroiqtisadi sabitlik və sosial inklüzivlik siyasətləri yeni nəsil iqtisadiyyat modelinin dayanıqlı olması üçün regionlar üzrə koordinasiyalı şəkildə düşünülməlidir. Yüksək YNİİ balına malik bəzi ölkələrdə sosial bərabərsizlik və regionlararası fərqlər qalmaqda davam edir, bu isə iqtisadi və texnoloji irəliləyişin inklüzivliklə tam uzlaşmadığını göstərir. Buna görə regional təşkilatların gündəmində həm texnoloji-innovativ gündəm, həm də sosial siyasət gündəmi paralel xətt kimi aparılmalı, xüsusilə qadınların, gənclərin və həssas qrupların rəqəmsal və iqtisadi imkanlara çıxışı üzrə birgə proqramlar gücləndirilməlidir.

Nəhayət, YNİİ-nin regional təhlili İƏT, TDT və CAREC üçün "ortaq indikator paneli" əsasında monitorinq mexanizmlərinin qurulmasını zəruri edir. Bu mexanizmlər vasitəsilə ölkələr öz irəliləyişlərini yalnız milli deyil, həm də regional kontekstdə müqayisə edə, ən yaxşı təcrübə nümunələrini paylaşa və yeni nəsil iqtisadiyyata keçidi sürətləndirən koordinasiyalı siyasət paketləri formalaşdıra bilərlər. Beləliklə, YNİİ-nin regional kəsimi təkcə ayrı-ayrı ölkələr üçün deyil, həm də bütövlükdə regionun rəqabətqabiliyyətinin və dayanıqlı inkişaf potensialının qiymətləndirilməsi üçün strateji alət kimi çıxış edir.

## 3.7. Subindekslər üzrə təhlil

YNİİ-nin gücü təkcə ümumi reytinqdə deyil, həm də ölkələrin performansını müxtəlif aspektlərdən təhlil etməyə imkan verən subindekslərdədir. Aşağıda hər bir subindeks üzrə nəticələr və qısa təhlil verilmişdir.

### 3.7.1. Bacarıq və texnoloji hazırlıq

Bu subindeks əhalinin rəqəmsal bacarıqlarını, İKT infrastrukturundan istifadəni və işçi qüvvəsinin təhsil səviyyəsini qiymətləndirir. Şimali Kipr, Gürcüstan və Azərbaycan bu sahədə liderdir. Bu, yüksək internet istifadəsi və mobil rabitənin geniş yayılması ilə əlaqədardır.

Əsas nəticələr:

- Şimali Kipr, Azərbaycan və Gürcüstan texnoloji bacarıqda regional liderlər;
- İnternet qovşağı ümumiyyətlə 85%+ səviyyəsində;
- Rəqəmsal bacarıq hələ orta səviyyədə (50-65 aralığında);
- Pakistan-Əfqanıstan əhalisi rəqəmsal texnologiyaları mənimsəmədə geri qalır.

**Cədvəl 3.12. Bacarıq sütunu - lider ölkələr**

| Ölkə | İnternet (%) | Mobil (100 nəfərə) | Rəqəmsal Bacarıq (0-100) | Ali Təhsil (25+, %) | Ümumi Bal |
|---|---|---|---|---|---|
| Şimali Kipr | 88.00% | 156 | n/a | 25.00% | 89 |
| Gürcüstan | 88.40% | 155.2 | 53.2 | 32.80% | 88 |
| Azərbaycan | 89.00% | 110.8 | 62.7 | 27.70% | 83 |
| Macarıstan | 91.50% | 106 | 55.4 | 29.40% | 77 |
| Qazaxıstan | 92.90% | 96 | 59.6 | 27.40% | 77 |
| Çin | 79.70% | 125.3 | 64.1 | 18.00% | 76 |
| Monqolustan | 83.90% | 141 | 47.9 | 22.60% | 69 |
| Türkiyə | 86.00% | 105.7 | 50.4 | 25.00% | 66 |
| İran | 84.00% | 106 | 44.3 | 23.40% | 58 |
| Özbəkistan | 89.00% | 82 | 46.9 | 15.80% | 50 |
| Qırğızıstan | 79.80% | 111 | 38.5 | 14.90% | 45 |
| Tacikistan | 36.10% | 45 | 57.4 | 8.50% | 28 |
| Türkmənistan | 21.30% | 109 | n/a | 9.60% | 27 |
| Pakistan | 36.70% | 53 | 39.2 | 6.30% | 10 |
| Əfqanıstan | 18.40% | 65 | n/a | 4.50% | 6 |

### 3.7.2. İnfrastruktur

Fiziki və rəqəmsal infrastrukturun vəziyyətini ölçən bu subindeksdə Çin, Şimali Kipr və Macarıstan liderlik edir. Bu ölkələr yüksək logistika performansı (LPI) və genişzolaqlı internetə çıxış imkanları ilə fərqlənir.

Komponentə daxil göstəricilər:

- Elektrik erişim (%): 85-100% aralı-ğında qrupda
- Lojistik Performans İndeksi (LPI 2023): 1.8-3.7 diapazonu
- Sabit İnternet qovşağı(100 nəfərə): 0.08-58 aralığında
- Su/Kanalizasiya xidmətləri (%): 50-100% aralığında

Kritik məsələlər:

- Elektrik: Əksər ölkələrdə 100%, Əfqanıstan 85.3% (kritik açıq)
- Sabit internet: Çində 41%, Şimali Kiprda 58% vs. Əfqanıstan 0.08% (ekstrem fərq)
- Pakistan: İnfrastruktur 33.47% (bütün blokda ən zəif)
- Tacikistan: Məlumat eksikliyinin yanı sıra, mövcud göstəricilər 69.28%

Seçmə analiz:

- Elektrik təchizatında əksəriyyət 100%-dir
- Sabit İnternet qoverage Çində (41%) və Şimali Kiprda (58%) yüksəkdir
- Pakistan və Əfqanıstanda infrastruktur kritik məsələdir.

**Cədvəl 3.12: İnfrastruktur - ən yüksək səviyyə**

| Ölkə | Elektrik (%) | LPI 2023 | Sabit İnternet (100 nəfərə) | Su/Kanalizasiya (%) | Ümumi Bal |
|---|---|---|---|---|---|
| Çin | 100 | 3.7 | 41 | 98 | 92 |
| Şimali Kipr | 98 | 3.2 | 58 | 100 | 90 |
| Macarıstan | 100 | 3.4 | 36.8 | 100 | 87 |
| Türkiyə | 100 | 3.4 | 22.5 | 98.5 | 80 |
| Gürcüstan | 100 | 2.5 | 28 | 97 | 70 |
| Tacikistan | 100 | 2.5 | n/a | 85.5 | 69 |
| Türkmənistan | 100 | 2.25 | n/a | 88.5 | 67 |
| Qazaxıstan | 100 | 2.7 | 15 | 93.5 | 65 |
| Özbəkistan | 100 | 2.6 | 21 | 90.5 | 65 |
| Azərbaycan | 100 | 2.5 | 16.7 | 95 | 64 |
| İran | 100 | 2.3 | 13 | 96.5 | 60 |
| Qırğızıstan | 100 | 2.35 | 6.45 | 91.5 | 56 |
| Monqolustan | 92 | 2.6 | 28.5 | 90 | 54 |
| Pakistan | 96 | 1.95 | 1.36 | 75.5 | 33 |
| Əfqanıstan | 85.3 | 1.8 | 0.08 | 50 | 00 |

### 3.7.3. İqtisadi performans

Bu subindeks ölkənin makroiqtisadi sabitliyini ölçür. Türkiyə, yüksək adambaşına düşən ÜDM-ə (PPP) baxmayaraq, yüksək inflyasiya səbəbindən bu kateqoriyada orta nəticə göstərir. Gürcüstan yüksək iqtisadi artım tempi ilə diqqət çəkir. Tacikistan və Qırğızıstan da yüksək artım templəri ilə fərqlənir.

**Mühüm nəticələr:**

- Türkiyə: En yüksək inflyasiya (59.5%) - makroiqtisadi risk
- Qırğızıstan: Ən yüksək ÜDM artımı (9.0%) - pozitiv dinamika
- Gürcüstan: Balanslaş profil (7.5% artım, 1.1% inflyasiya)
- Azərbaycan: Stabil makro profil - İnflyasiya 3.5%, İşsizlik 5.8%
- Pakistan/Əfqanıstan: Kritik makro-iqtisadi qeyri-sabitlik
- Türkiyə ən yüksək inflasiyaya (59.5%) malikdir - makroiqtisadi risk
- Qırğızıstan ən yüksək ÜDM artımına (9.0%) sahibdir
- Gürcüstan zəif işsizlik göstəricisinə malikdir (13.7%)
- Pakistan əhəmiyyətli makro-istikrar çətinlikləri yaşayır.

## Cədvəl 3.13. İqtisadi performans - seçmə göstəricilər

| Ölkə | ÜDM (PPP, $) | ÜDM Artımı (%) | İnflyasiya (%) | İşsizlik (%) | Ümumi Bal |
|---|---|---|---|---|---|
| Türkiyə | 43,920 | 3.0 | 59.5 | 9.3 | 67 |
| Gürcüstan | 24,850 | 7.5 | 1.1 | 13.7 | 59 |
| İran | 19,940 | 3.7 | 31.7 | 8.9 | 43 |
| Tacikistan | 4,964 | 8.3 | 3.7 | 8.0 | 36 |
| Qırğızıstan | 7,298 | 9.0 | 10.8 | 5.2 | 35 |
| Türkmənistan | 19,829 | 6.3 | -1.6 | n/a | 35 |
| Özbəkistan | 11,500 | 5.6 | 10.8 | 8.3 | 35 |
| Qazaxıstan | 34,530 | 3.5 | 8.4 | 4.7 | 30 |
| Monqolustan | 13,200 | 4.6 | 9.8 | 7.0 | 29 |
| Çin | 25,015 | 4.8 | 0.4 | 5.2 | 27 |
| Macarıstan | 45,690 | 1.5 | 3.8 | 4.3 | 27 |
| Pakistan | 6,960 | 2.5 | 24.8 | 8.0 | 27 |
| Azərbaycan | 26,080 | 3.2 | 3.5 | 5.8 | 25 |
| Şimali Kipr | 9,500 | 3.0 | 8.0 | 7.0 | 20 |
| Əfqanıstan | 2,202 | 2.3 | 8.8 | n/a | 09 |

### 3.7.4. Təhsil

Təhsil altindeksi ölkənin baza savadlılıq səviyyəsini, orta və ali təhsillə əhatəliliyi və təhsil keyfiyyətini ölçür. Çin PISA nəticələri və STEM məzunlarının yüksək payı ilə bu sahədə liderdir**.** Macarıstan, Şimali Kipr və Monqolustan da güclü təhsil sistemləri ilə fərqlənir.

**Kritik səviyyə:**

- **Çin dominantlığı**: PISA 528 (Global Ort. ~420), STEM 52% - mütəfəkkir kapital
- **Savadlılıq Kriteriyası**: 95%+ çox ölkədə, Əfqanıstan 37%, Pakistan 60%
- **STEM İstiqamətlənmə**: Çində (52%), Monqolustanda (38%) yüksək - innovasiya hazırlığı
- **Azərbaycan**: Balanslaş profil (99% savadlılıq), PISA 397 (regional orta)

## Cədvəl 3.14: Təhsil - müqayisəli keyfiyyət

| Ölkə | Təhsil xərcləri (% ÜDM) | Savadlılıq (%) | Məktəbəqədər uşaq (% GER) | Orta təhsil GER (%) | Ali təhsil GER (%) | PISA 2022 Riyaziyyat | STEM Məzunları (%) | Ümumi Bal |
|---|---|---|---|---|---|---|---|---|
| Çin | 4.0 | 97.0 | 89.7 | 99.0 | 72.0 | 528 | 52.0 | 85 |
| Macarıstan | 4.1 | 99.0 | 93.2 | 98.5 | 47.0 | 483 | 30.0 | 72 |
| Monqolustan | 4.5 | 98.5 | 86.0 | 94.0 | 66.0 | 435 | 38.0 | 72 |
| Şimali Kipr | n/a | 99.5 | 85.0 | 97.0 | 80.0 | 418 | 25.0 | 72 |
| Qazaxıstan | 4.4 | 99.8 | 78.3 | 97.0 | 67.0 | 425 | 30.0 | 68 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Türkiyə | 4.0 | 96.7 | 48.6 | 95.0 | 116.0 | 453 | 28.0 | 68 |
| Gürcüstan | 3.2 | 100.0 | 73.8 | 95.0 | 68.4 | 438 | 32.0 | 65 |
| Qırğızıstan | 6.8 | 99.4 | 42.0 | 98.1 | 45.0 | n/a | 19.1 | 64 |
| Özbəkistan | 5.5 | 99.3 | 65.1 | 96.0 | 38.0 | 364 | 22.0 | 57 |
| Azərbaycan | 3.7 | 99.0 | 46.3 | 98.0 | 41.4 | 397 | 26.5 | 54 |
| İran | 2.8 | 87.6 | 58.0 | 85.0 | 59.0 | n/a | 18.0 | 48 |
| Türkmənistan | 2.7 | 99.7 | 72.0 | 90.0 | 18.8 | n/a | 15.0 | 48 |
| Tacikistan | 5.4 | 99.5 | 15.0 | 85.0 | 32.0 | 395 | 20.0 | 46 |
| Pakistan | 1.9 | 60.6 | 54.0 | 65.0 | 13.0 | 327 | 12.0 | 18 |
| Əfqanıstan | n/a | 37.1 | 15.0 | 45.0 | 8.0 | n/a | n/a | 00 |

### 3.7.5. Səhiyyə

Səhiyyə subindeksi əhalinin sağlamlıq vəziyyətini və səhiyyə sisteminin effektivliyini ölçür. Şimali Kipr, Macarıstan və Çin bu sahədə ən yüksək nəticələrə malikdir. Bu ölkələrdə gözlənilən ömür uzunluğu və sağlam həyat illəri (HALE) yüksək, uşaq ölümü isə aşağıdır.

**Kritik məsələlər:**

- **Pakistan** Uşaq ölümü 58.5‰ (Ən kritik durum) - səhiyyə infrastruktur qatı
- **Əfqanıstan**: Uşaq ölümü 55.5‰ - ekstrem sağlamlıq təhlükəsi
- **Yaş Fərqi**: Şimali Kipr 82 il vs. Əfqanıstan 66 il (16 il fərq)
- **Azərbaycan**: 74 il (regional orta), UHC İndeksi 68 (fəaliyyət səviyyəsi)

**Cədvəl 3.15. Səhiyyə - əmək göstəriciləri**

| Ölkə | Yaşlılıq Orta (il) | Uşaq Ölümü (‰) | HALE (il) | Səhiyyə Xərcləri (% ÜDM) | UHC İndeksi | Ümumi Bal |
|---|---|---|---|---|---|---|
| Şimali Kipr | 82 | 2.8 | 75.0 | 7.5 | 88 | 73 |
| Macarıstan | 77 | 4.5 | 69.5 | 8.1 | 85 | 63 |
| Çin | 78 | 5.2 | 69.0 | 5.8 | 78 | 56 |
| Türkiyə | 77 | 12.8 | 66.9 | 4.5 | 75 | 51 |
| Gürcüstan | 74 | 9.0 | 65.0 | 7.2 | 70 | 48 |
| İran | 78 | 11.8 | 67.1 | 3.7 | 70 | 48 |
| Azərbaycan | 74 | 18.6 | 64.5 | 5.5 | 68 | 46 |
| Tacikistan | 72 | 27.3 | 62.5 | 6.5 | 60 | 43 |
| Qazaxıstan | 74 | 9.6 | 64.2 | 3.8 | 72 | 41 |
| Qırğızıstan | 72 | 17.0 | 62.1 | 5.9 | 65 | 40 |
| Əfqanıstan | 66 | 55.5 | 52.2 | 10.8 | 45 | 39 |
| Özbəkistan | 72 | 13.3 | 62.8 | 5.2 | 67 | 39 |
| Türkmənistan | 70 | 40.0 | 60.3 | 4.1 | 62 | 39 |
| Monqolustan | 71 | 14.0 | 62.0 | 4.5 | 65 | 35 |
| Pakistan | 68 | 58.5 | 58.3 | 1.2 | 52 | 31 |

### 3.7.6. Sosial inklüzivlik

Bu subindeks iqtisadi inkişafın inklüzivliyini ölçür. Türkmənistan, Qazaxıstan və Qırğızıstan bu sahədə nisbətən yüksək nəticələr göstərir. Bu, qadınların iqtisadi iştirakı və gəlir bərabərsizliyi (Gini koeffisienti) kimi göstəricilərlə bağlıdır. Əfqanıstan isə bu sahədə ciddi çətinliklərlə üzləşir.

**Əsas nəticələr:**

- **Qazaxıstan Liderliyi**: Qadın iştirakı 65.3% (ən yüksək), Gini 29.2 (bərabər)
- **Azərbaycan**: Qadın iştirakı 62.8% (Qazaxıstandan sonra 2-ci), Gini 26.6 (ən aşağı - ən bərabər)
- **Türkiyə**: Qadın iştirakı 35.8% (ən aşağı), Gini 44.5 (ən yüksək eşitsizlik)
- **İran**: Qadın iştirakı 14.4% (ekstrem qeyri-bərabərlik)
- **Əfqanıstan**: Yoxsulluq 90% (ekstrem sosyal çətinlik)

**Cədvəl 3.16: Sosial inklüzivlik**

| Ölkə | GGI (0-1) | Qadın İştirakı (%) | Gini Koeffisienti | Yoxsulluq (%) | Engel Əmsalı (%) | Ümumi Bal |
|---|---|---|---|---|---|---|
| Türkmənistan | n/a | 48.70% | 48.0 | n/a | 52.00% | 74 |
| Əfqanıstan | 0.405 | 4.80% | n/a | 90.00% | 75.00% | 60 |
| Qazaxıstan | 0.721 | 65.30% | 29.2 | 5.20% | 49.40% | 54 |
| Qırğızıstan | 0.700 | 46.00% | 29.0 | 33.00% | 52.00% | 54 |
| Tacikistan | 0.672 | 32.00% | 34.0 | 22.50% | 55.00% | 53 |
| Özbəkistan | 0.681 | 38.60% | 35.3 | 14.00% | 51.00% | 52 |
| Gürcüstan | 0.716 | 46.70% | 34.2 | 15.60% | 45.00% | 51 |
| Azərbaycan | 0.692 | 62.80% | 26.6 | 5.50% | 46.10% | 48 |
| Monqolustan | 0.730 | 52.80% | 32.7 | 27.80% | 300% | 47 |
| Çin | 0.690 | 60.50% | 37.1 | 0.50% | 29.80% | 45 |
| Pakistan | 0.570 | 24.50% | 29.6 | 39.00% | 42.00% | 38 |
| Türkiyə | 0.638 | 35.80% | 44.5 | 0.40% | 23.00% | 37 |
| İran | 0.575 | 14.40% | 34.8 | 20.00% | 38.00% | 34 |
| Şimali Kipr | 0.680 | 45.00% | 30.0 | 15.00% | 25.00% | 34 |
| Macarıstan | 0.750 | 49.50% | 29.0 | 12.00% | 18.20% | 33 |

### 3.7.7. Demoqrafik struktur

Bu subindeks ölkə əhalisinin yaş quruluşunu və iqtisadi fəal əhalinin nisbətini ölçür. Macarıstan, Çin və Şimali Kipr daha yetkin əhali strukturu və aşağı asılılıq əmsalı ilə fərqlənir. Əfqanıstan, Pakistan və Tacikistan isə gənc əhali payının yüksək olması ilə "demoqrafik dividend" potensialına malikdir, lakin bu, həm də yüksək asılılıq yükü deməkdir.

**Əsas nəticələr:**

- **Çin qocalması**: Median yaş 39 (ən yüksək) **-** yaşlanan populyasiya çətinliyi
- **Azərbaycan fürsəti**: 67% işçi, median yaş 34 - demoqrafik bonus dövrü
- **Əfqanıstan yükü**: 55% işçi, 83.5% asılılıq - kritik iqtisadi yüklənmə
- **Pakistan çətinliyi**: 59% işçi, 69.5% asılılıq - seçmə üzrə ən pis

**Cədvəl 3.17: Demoqrafik struktur - əhali potensialı**

| Ölkə | İşçi Yaşlı Əhali (%) | Yaş Asılılıq (%) | Median Yaş (il) | Ümumi Bal |
|---|---|---|---|---|
| Macarıstan | 68 | 47.0 | 43 | 66 |
| Çin | 70 | 42.0 | 39 | 61 |
| Şimali Kipr | 66 | 51.0 | 37.5 | 57 |
| Gürcüstan | 62 | 60.0 | 37 | 55 |
| Türkiyə | 68 | 46.5 | 34.5 | 54 |
| İran | 69 | 44.0 | 33.5 | 52 |
| Azərbaycan | 67 | 44.0 | 34 | 49 |
| Qazaxıstan | 62 | 61.0 | 32 | 48 |
| Türkmənistan | 64 | 56.0 | 31 | 47 |
| Monqolustan | 65 | 55.0 | 28 | 44 |
| Özbəkistan | 63 | 58.5 | 29 | 44 |
| Qırğızıstan | 62 | 61.5 | 28 | 43 |
| Tacikistan | 60 | 67.0 | 23 | 36 |
| Pakistan | 59 | 69.5 | 23 | 35 |
| Əfqanıstan | 55 | 83.5 | 20 | 33 |

### 3.7.8. İnnovasiya

Yeni bilik və texnologiyaların yaradılmasını ölçən bu subindeksdə Çin mütləq liderdir. Bu, yüksək ETTKİ xərcləri, patent müraciətlərinin sayı və Qlobal İnnovasiya İndeksindəki (GII) yüksək mövqeyi ilə bağlıdır. Macarıstan, Qazaxıstan və Özbəkistan da bu sahədə müəyyən potensiala malikdir.

**İnnovasiya paradoksu tapıntıları:**

1. **Çin hegemonyası**:
   - R&D 2.43% (Ən yüksək)
   - Patent 1619 (Digərlərinin 3-5 dəfə artığı)
   - Fərq: ardıcıl ayrışma
2. **Azərbaycan açığı** (KRITIK):
   - R&D 0.18% (Çinin 13.5x aşağısı)
   - Patent 246 (Global orta 4-5x aşağısı)
   - Yüksək-texnoloji ixracat 0.15% (Praktik sıfır)
   - GII Reytinqi 94 (Qrup içində ən pis 4-cü)
   - Tövsiye: 3 il ərzində R&D 0.5%-ə artırılması
3. **Qazaxıstan paradoksu**:
   - R&D 0.13% (Çox aşağı)
   - LAKIN yüksək-teknologi ixracat 32.3% (Çine yaxın!)
   - Fərqləndirmə: Mövcud texnoloji ixracını dəstəkləyən, qət-qətə R&D-ə keçid lazım
4. **Türkiyə anomaliyası**:
   - Patent 11588 (ən çoxu - 23x Azərbaycandan çox!)
   - Lakin düşük yüksək-teknologi ixracı (3.2%)
   - Səbəbi: Patentlər sadalanır, lakin komersilaşdırılmır.

**Cədvəl 3.18: İnnovasiya - ən güclü sahə**

| Ölkə | ETTKİ (% ÜDM) | Patent (illik) | Yüksək Tex. İxracı (%) | İnnovasiya İndeksi (GII 2025) | Ümumi Bal |
|---|---|---|---|---|---|
| Çin | 2.43% | 1619.268 | 27.80% | 56.3 | 91 |
| Macarıstan | 1.64% | 500 | 18.40% | 39.6 | 49 |
| Qazaxıstan | 0.13% | 975 | 32.30% | 25.7 | 39 |
| Özbəkistan | 0.16% | 526 | 42.20% | 24.7 | 38 |
| Türkiyə | 1.40% | 11.588 | 3.20% | 39.0 | 29 |
| Monqolustan | 0.20% | 12 | 30.80% | 28.7 | 26 |
| Qırğızıstan | 0.11% | 60 | 27.60% | 20.4 | 19 |
| İran | 0.73% | 95 | 0.60% | 28.9 | 15 |
| Gürcüstan | 0.30% | 6 | 5.50% | 30.4 | 13 |
| Pakistan | 0.20% | 528 | 0.95% | 22.0 | 12 |
| Şimali Kipr | 0.60% | 35 | 3.20% | n/a | 10 |
| Azərbaycan | 0.18% | 246 | 0.15% | 21.3 | 6 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Tacikistan | 0.10% | 0 | 1.55% | 18.6 | 1 |
| Əfqanıstan | n/a | n/a | n/a | n/a | n/a |
| Türkmənistan | n/a | n/a | n/a | n/a | n/a |

### 3.7.9. Kreativ iqtisadiyyat

Kreativ iqtisadiyyat altindeksi ölkənin mədəni və yaradıcı sahələrinin iqtisadi fəallığını ölçür. Çin bu sahədə də böyük fərqlə liderdir. Macarıstan və Şimali Kipr də kreativ xidmət və məhsulların ixracında yüksək nəticələr göstərir.

**Kreativlik nəticələri:**

- **Çin Monopolu**: 4.1% xidmət ixracı, 6.2% kreativ məşğullarız – mədəni ağırlıq
- **Macarıstan**: balanslaş profil (xidmət 2.8%, kreativ 4.7%) - dövrü ekonomiya
- **Azərbaycan Sorunu**: xidmət ixracı 0.1% (praktik sıfır), kreativ 3.8% - komersiyalaşdırma çatışmazlığı
- **Gürcüstan**: turizm səbəbilə xidmət ixracında üstün (1.5%)

**Cədvəl 3.19: Kreativ iqtisadiyyat**

| Ölkə | Xidmət İxracı (%) | Mal İxracı (%) | Kreativ İşçilər (%) | Ümumi Bal |
|---|---|---|---|---|
| Çin | 4.1 | 12.5 | 6.2 | 100 |
| Macarıstan | 2.8 | 5.2 | 4.7 | 59 |
| Şimali Kipr | 3.5 | 1.8 | 4.0 | 51 |
| Türkiyə | 0.2 | 3.3 | 4.5 | 32 |
| Gürcüstan | 1.5 | 0.9 | 3.1 | 26 |
| Türkmənistan | n/a | n/a | 2.5 | 21 |
| Özbəkistan | 0.1 | 0.4 | 4.0 | 20 |
| Qazaxıstan | 0.1 | 0.2 | 4.1 | 20 |
| Monqolustan | 0.8 | 1.2 | 2.8 | 19 |
| Azərbaycan | 0.1 | 0.0 | 3.8 | 17 |
| İran | 0.2 | 0.1 | 3.7 | 17 |
| Qırğızıstan | 0.05 | 0.2 | 3.6 | 16 |
| Tacikistan | 0.0 | 0.1 | 3.2 | 12 |
| Pakistan | 0.1 | 0.1 | 2.9 | 11 |
| Əfqanıstan | n/a | n/a | 1.5 | 0.00 |

### 3.7.10. Platforma və paylaşım iqtisadiyyatı

Bu altindeks rəqəmsal platformalar vasitəsilə həyata keçirilən iqtisadi fəaliyyətin həcmini ölçür. Çin platforma iqtisadiyyatının ÜDM-dəki payı və işçi qüvvəsindəki rolu ilə bu sahədə də liderdir. Macarıstan və Türkiyə də güclü nəticələr göstərir.

**Cədvəl 3.20: Platforma və paylaşım iqtisadiyyatı**

| Ölkə | Platforma ÜDM (%) | Platforma İşçiləri (%) | İstifadə (%) | Ümumi Bal |
|---|---|---|---|---|
| Çin | 8.5 | 12.0 | 65.0 | 1.00 |
| Macarıstan | 4.2 | 5.8 | 58.0 | 60 |
| Türkiyə | 3.8 | 4.7 | 58.5 | 55 |
| Şimali Kipr | 3.8 | 5.0 | 52.0 | 52 |
| Qazaxıstan | 2.5 | 3.9 | 48.2 | 41 |
| Gürcüstan | 2.5 | 3.5 | 45.0 | 38 |
| Azərbaycan | 2.1 | 3.4 | 42.0 | 35 |
| Özbəkistan | 1.8 | 3.1 | 41.0 | 32 |
| Qırğızıstan | 1.3 | 2.8 | 36.7 | 26 |
| İran | 1.2 | 2.5 | 30.3 | 21 |
| Pakistan | 1.0 | 2.2 | 28.9 | 19 |
| Tacikistan | 0.9 | 2.0 | 25.4 | 16 |
| Monqolustan | 1.0 | 2.0 | 18.0 | 12 |
| Türkmənistan | 0.5 | 1.2 | 15.0 | 05 |
| Əfqanıstan | 0.3 | 0.8 | 9.5 | 0 |

# IV Hissə. ÖLKƏ PROFİLLƏRİ

## 4.1. Ölkələrin ümumi profili

Bu bölmədə YNİİ üzrə tədqiqata cəlb olunmuş 15 ölkənin profilləri təqdim edilib.




*Şəkil 13. Ümumi Reytinq*

Reytinqə görə Çin 74,42 bal ilə birinci yerdə qərarlaşır və həm bacarıq və texnoloji hazırlıq, həm infrastruktur, həm də innovasiya və platforma iqtisadiyyatı üzrə yüksək göstəriciləri ilə fərqlənir. Macarıstan, Türkiyə, Şimali Kipr və Gürcüstan 50-60 bal intervalında yerləşərək "yüksək" qrupu formalaşdırır.

Bu ölkələrdə təhsil, bacarıqlar və rəqəmsal infrastruktur üzrə göstəricilər nisbətən güclü, lakin innovasiya və kreativ sektorların dərinliyi lider ölkə ilə müqayisədə daha məhduddur.

**Qazaxıstan, Özbəkistan, Azərbaycan, Monqolustan, Qırğızıstan və İran** 40-50 bal diapazonunda "orta performanslı" ölkələr qrupunu təşkil edir. Onların əksəriyyətində bacarıq və təhsil sahəsində müəyyən üstünlüklər olsa da, innovasiya ekosistemi, kreativ iqtisadiyyat və platforma əsaslı biznes modellərinin inkişafı hələ tam formalaşmayıb. Bu səbəbdən YNİİ balları orta səviyyədə cəmləşir.

**Türkmənistan və Tacikistan** 30-40 bal aralığında yerləşərək struktur imkanları məhdud, lakin ayrı-ayrı komponentlərdə (məsələn, sosial inklüzivlik və ya infrastrukturun seçilmiş seqmentləri) qismən irəliləyiş göstərən ölkələr kimi xarakterizə oluna bilər.

Reytinqin aşağı hissəsində qərarlaşan **Pakistan (22,20 bal)** və **Əfqanıstan (12,76 bal)** isə həm input, həm də output komponentləri üzrə ciddi geriləmə ilə seçilirlər. Əfqanıstan üçün bəzi subindekslər üzrə məlumat boşluqları mövcuddur ki, bu da balın aşağı olmasına əlavə təsir göstərir.

| Qrup | Ölkə sayı | Ümumi YNİİ (orta) | Input (orta) | Output (orta) | Fərq (orta) |
|---|---|---|---|---|---|
| Lider ölkələr (Top 5) | 5 | 58.2 | 67.0 | 50.9 | 16.1 |
| Orta qrup (6–10) | 5 | 43.5 | 53.0 | 26.4 | 26.6 |
| Aşağı qrup (11–15) | 5 | 28.3 | 34.0 | 9.8 | 24.2 |

**Cədvəl 4.1. Qruplar üzrə ümumi xülasə (orta göstəricilər)**

## 4.2. Lider qrup və yüksək performanslı ölkələr

Bu bölmədə YNİİ üzrə ilk beşlik – Çin, Macarıstan, Türkiyə, Şimali Kipr və Gürcüstan təhlil edilir. Bu ölkələr həm güclü input bazasına, həm də bu bazanı real iqtisadi nəticələrə çevirmə qabiliyyətinə malikdirlər.




***Şəkil 14. Lider ölkələr***

| Reytinq | Ölkə | Ümumi YNİİ | Input orta | Output orta | Fərq (I–O) |
|---|---|---|---|---|---|
| **1** | Çin | 74.4 | 65.9 | 97.1 | -31.2 |
| **2** | Macarıstan | 59.0 | 65.2 | 58.3 | 6.9 |
| **3** | Türkiyə | 53.7 | 64.3 | 39.8 | 24.6 |
| **4** | Şimali Kipr | 53.2 | 72.1 | 34.4 | 37.7 |
| **5** | Gürcüstan | 50.9 | 67.5 | 25.0 | 42.5 |

*Bu qrup regionun iqtisadi və texnoloji lokomotivlərini təmsil edir.* ***Çin*** *qlobal innovasiya lideri kimi dominantdır.* ***Türkiyə*** *kreativ sənayedə (99.1) Çinlə rəqabət aparır.* ***Macarıstan*** *Avropa standartlı infrastrukturu ilə seçilir.* ***Gürcüstan*** *isə yüksək rəqəmsal bacarıqları (76.8) ilə bu qrupa daxil olmağı bacarıb.*

## 4.3. Orta performanslı və “təqib edən” ölkələr

YNİİ üzrə orta performans və ya “təqib edən” ölkələr qrupuna əsasən 40-50 bal intervalında yerləşən iqtisadiyyatlar daxildir. Bu qrupa Qazaxıstan (49.71), Özbəkistan (43.99), Azərbaycan (42.11), Monqolustan (41.83), Qırğızıstan (39.80) kimi ölkələri aid etmək mümkündür. Bu qrup üçün xarakterik cəhət ondan ibarətdir ki, bir çox hallarda bacarıq, təhsil və infrastruktur üzrə göstəricilər orta səviyyəyə yaxındır, lakin innovasiya, kreativ iqtisadiyyat və platforma iqtisadiyyatı subindeksləri lider ölkələrlə müqayisədə daha zəifdir.

Bu, tipik "yüksək input - orta/aşağı output" profilinə uyğun gəlir.

Orta performanslı və “təqib edən” ölkələr üçün ümumi çağırış ondan ibarətdir ki, mövcud resurs və institusional bazanın üzərində innovasiya ekosistemini gücləndirən, kreativ və platforma əsaslı sektorların inkişafını sürətləndirən hədəfli siyasət paketləri formalaşdırılsın. Bu qrupa daxil olan ölkələrdə YNİİ-ni artırmaq üçün prioritet istiqamətlər aşağıdakılar hesab oluna bilər:

- təhsil və bacarıq sisteminin innovasiya və rəqəmsal iqtisadiyyat tələblərinə uyğunlaşdırılması;
- elmi tədqiqat və startap ekosisteminə yönəlmiş maliyyə və institusional dəstəyin genişləndirilməsi;
- kreativ və mədəni sənayelərin rəqəmsal platformalarla inteqrasiyasının stimullaşdırılması;
- rəqabətqabiliyyətli və şəffaf biznes mühitinin gücləndirilməsi.

Beləliklə, orta performanslı və “təqib edən” ölkələr, bir tərəfdən, liderlərlə müqayisədə hələ geridə qalır, digər tərəfdən isə düzgün strategiya və ardıcıl institusional islahatlar şəraitində yeni nəsil iqtisadiyyat modelinə daha sürətli keçid üçün ən böyük “yaxalama potensialı”na (catch-up potential) malik olan qrup kimi qiymətləndirilə bilər. Bu ölkələr üçün YNİİ yalnız mövcud vəziyyətin diaqnostikası deyil, həm də siyasət istiqamətlərinin prioritetləşdirilməsi üçün praktiki yol xəritəsi funksiyasını yerinə yetirir.




***Şəkil 15. Orta qrup (6–10)***

| Reytinq | Ölkə | Ümumi YNİİ | Input orta | Output orta | Fərq (I–O) |
|---|---|---|---|---|---|
| **6** | Qazaxıstan | 49.7 | 58.5 | 37.3 | 21.2 |
| **7** | Özbəkistan | 44.0 | 49.0 | 33.7 | 15.3 |
| **8** | Azərbaycan | 42.1 | 53.4 | 18.2 | 35.2 |
| **9** | Monqolustan | 41.8 | 51.7 | 21.6 | 30.1 |
| **10** | Qırğızıstan | 40.0 | 52.6 | 21.4 | 31.2 |

*Bu qrupda "Keçid İqtisadiyyatları" yer alır. **Azərbaycan** (82.6) və **Qazaxıstan** (77.3) rəqəmsal bacarıqlarda region liderləridir. lakin hər ikisi innovasiya (output) sahəsində çətinlik çəkir. **Özbəkistan** sürətli islahatlarla fərqlənir. Əsas hədəf mövcud resursların (input) real iqtisadi nəticəyə çevrilməsidir*

## 4.4. Aşağı performanslı ölkələr və struktur məhdudiyyətlər

YNİİ üzrə aşağı performanslı ölkələr qrupuna 35 baldan aşağı nəticə göstərən iqtisadiyyatlar və İran (40.0), Türkmənistan (34.74), Tacikistan (32.85), Pakistan (22.20) və Əfqanıstan (12.76) daxil edilir. Bu ölkələr üçün həm input, həm də output komponentləri üzrə sistemli geriləmə müşahidə olunur. Aşağı performanslı ölkələr üçün xarakterik olan başlıca struktur məhdudiyyətlər aşağıdakı kimi ümumiləşdirilə bilər:

- **İnsan kapitalı boşluqları:** Təhsil və bacarıq səviyyəsinin aşağı olması, rəqəmsal savadlılığın zəifliyi.
- **İnfrastruktur çatışmazlıqları:** Rəqəmsal şəbəkələrin və fiziki infrastrukturun zəif inkişafı, xüsusilə kənd və ucqar bölgələrdə “rəqəmsal uçurum”un dərinliyi.
- **İnstitusional zəifliklər:** İdarəetmə keyfiyyəti ilə bağlı problemlər, hüquqi qeyri-müəyyənlik, investisiya mühitinin riskli olması.
- **Sosial və siyasi risklər:** Yüksək yoxsulluq, regional gərginliklər, bəzən davamlı münaqişə və qeyri-sabitlik.

Bu ölkələr üçün siyasət prioritetləri ilk növbədə baza şərtlərin bərpası və gücləndirilməsinə, daha sonra isə seçilmiş pilot sahələrdə yeni nəsil iqtisadiyyat elementlərinin mərhələli şəkildə formalaşdırılmasına yönəldilməlidir.




*Şəkil 16. Aşağı qrup (11–15)*

| Reytinq | Ölkə | Ümumi YNİİ | Input orta | Output orta | Fərq (I–O) |
|---|---|---|---|---|---|
| **11** | İran | 39.1 | 52.0 | 18.7 | 33.3 |
| **12** | Türkmənistan | 34.7 | 40.8 | 8.4 | 32.4 |
| **13** | Tacikistan | 32.9 | 43.2 | 7.3 | 35.9 |
| **14** | Pakistan | 22.2 | 21.6 | 14.5 | 7.1 |
| **15** | Əfqanıstan | 12.8 | 12.3 | 0.0 | 12.3 |

*Struktur islahatlarına ən çox ehtiyacı olan qrupdur. **İran** sanksiyalara baxmayaraq texnoloji baza (53.5) saxlayır. **Qırğızıstan** və **Tacikistan** infrastruktur çatışmazlıqları ilə üzləşir. **Pakistan** isə demoqrafik potensialına (gənc əhali) baxmayaraq. rəqəmsal savadlılıqda (24.3) geri qalır.*

## 4.5. Ölkələrin təhlilləri

### REYTİNQ #1

### ÇİN 74.42

*Çin "Yeni Nəsil İqtisadiyyat" modelinin qlobal etalonudur. Kreativ və Platforma iqtisadiy-yatında mütləq liderliyi (100 bal) və yüksək innovasiya potensialı (91.4) onu rəqiblərindən kəskin fərqləndirir. Əsas risk faktoru makro-iqtisadi balansın (27.3) kövrəkliyi və sosial inkluzivlikdəki boşluqlardır.* Həm input, həm də output blokunda balanslı və yüksək performans mövcuddur.

*Prioritet (3-5 il): innovasiya ekosistemi (ETTKİ→ kommersiyalaşdırma) startap/vençur maliyyəsi və kreativ-platforma sektorları üçün tənzimləmə+ixrac təşviqləri vasitəsilə input üstünlüklərini məhsul, xidmət və ixrac nəticələrinə çevirmək.*




| Komponent | Qrup | Bal (0–100) | Səviyyə |
|---|---|---|---|
| Demoqrafik Struktur | Input | 60.87 | Orta |
| Bacarıq və Texnoloji Hazırlıq | Input | 75.58 | Yüksək |
| İnfrastruktur | Input | 91.66 | Yüksək |
| Təhsil | Input | 84.70 | Yüksək |
| Səhiyyə | Input | 55.53 | Orta |
| Sosial İnklüzivlik | Input | 44.81 | Orta |
| İqtisadi Performans | Input | 27.33 | Aşağı |
| İnnovasiya | **Output** | 91.44 | Yüksək |
| Kreativ İqtisadiyyat | **Output** | 100.00 | Yüksək |
| Platforma və Paylaşım İqtisadiyyatı | **Output** | 100.00 | Yüksək |

| Input komponentləri | | |
|---|---|---|
| **Subindeks / Alt göstərici** | **Real dəyər** | **Bal (0-100)** |
| **1. Demoqrafik Struktur** | | **60.87** |
| 1.1 İşçi yaşlı əhalinin payı (%) | 70% | 100 |

| Output komponentləri | | |
|---|---|---|
| **Subindeks / Alt göstərici** | **Real dəyər** | **Bal (0-100)** |
| **3. İnnovasiya** | | **91.44** |
| 3.1 ETTKİ xərcləri (% ÜDM) | 2.43% | 100 |

| | | |
|---|---|---|
| 1.2 Yaş asılılıq əmsalı | 42% | 0 |
| 1.3 Median yaş (il) | 39 il | 82.61 |
| **2. Bacarıq və Texnoloji Hazırlıq** | | **75.58** |
| 2.1 İnternet istifadəçilərinin payı (%) | 79.7% | 82.28 |
| 2.2 Mobil genişzolaqlı abunəlik (100 nəfərə) | 125.3 | 72.34 |
| 2.3 Rəqəmsal bacarıq indeksi (0-100) | 64.1 | 100 |
| 2.4 Ali təhsilli yetkin əhali (%) | 18% | 47.7 |
| **6. İnfrastruktur** | | **91.66** |
| 6.1 Əhalinin elektrik enerjisinə çıxışı (%) | 100% | 100 |
